Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

27 NOYABR 2019-cu il

№ 210 (4108)

Qiymәti 40 qәpik

www.baki-xeber.com

Hәftәdә 5 dәfә çıxır

Qәzet 2003-cü ildәn nәşr olunur

# PAŞİNYAN HİTLERƏ XAS ÖLÜM KREMATORİYALARININ YARADILMASINA QƏRAR VERDİ

■ səh. 7 ■

Almaniyanın Miqrasiya təşkilatından Ermənistana sərt təyinat - "monoetnik dövlət"...

■ səh. 7 ■

Erməni jurnalistlər Azərbaycandakı tolerantlıq barədə bir kəlmə də yazmadılar, halbuki, kilsəni gözləri ilə gördülər...

■ səh. 5 ■

Paşinyanın Qarabağ siyasətindən Ermənistanda ictimai narazılıq sıçrayışla artır

■ səh. 9 ■

Valeh Ələsgərov vitse-spikerlikdən və MM üzvlüyündən gedəcək?...

■ səh. 5 ■

Əli İnsanovun partiya quruculuğu prosesi saxtakarlıqla başladı...

■ səh. 10 ■

Paşinyan Avropada Azərbaycan barədə saxta ermənifobiya faktları yaymağa çalışdı...

■ səh. 6 ■

İrəvanda iki faşistin heykəlinə görə Ermənistanın başı daha böyük dərdlərə girir

■ səh. 8 ■

Azərbaycanda intiharların qarşısının alınmasına yönəlik birgə BMT - Əmək... Nazirliyi layihəsi...

■ səh. 13 ■





■ səh. 3 ■

Generallar əvvəlcə ayrı-ayrılıqda Prezident İlham Əliyevlə görüşdülər



## NATO və Rusiya ali hərbi rəhbərləri növbəti dəfə tarixi görüş üçün Bakını seçdilər...



Qarabağda azərbaycanlıların faiz nisbəti barədə İlham Əliyevin fikirləri erməni mediasında təhrif olundu...

■ səh. 2 ■

Mehriban Əliyevanın Rusiyada görüşlərindən sonra yeni hədəf - Azərbaycana 2 milyon rus turist...

■ səh. 4 ■



Ermənistandakı Rusiya səfirinə hücum - mövzu yenə faşist əlaltısı Njdedir...

■ səh. 11 ■

■ səh. 10 ■

Müsavat Partiyasının yeni qurultay zərurəti gündəmə taxıldı...



■ səh. 11 ■

ABŞ Suriyada anti-İŞİD əməliyyatları bərpa etdi - arxa görüntülər...



■ səh. 14 ■

Uçub dağılan yollara görə hələ heç vaxt cinayət işi açılmayıb - faktları malalamaq kimə lazımdır...



■ səh. 13 ■

"Aquavita" şirkətində maaş problemi - işçilər niyə narazıdır...



■ səh. 12 ■

Sərbəst danışıq ünsiyyəti qura bilməyən xarici dil müəllimləri problemi...



## Prezident İlham Əliyev Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilən mərasimdə iştirak edib

**Noyabrın 26-da Konqres Mərkəzində Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə mərasim keçirilib.**

Prezident İlham Əliyev mərasimdə iştirak edərək nitq söyləyib.

Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev və universitetin professoru, hüquq elmləri doktoru Firuzə Abbasovanın çıxışından sonra pianoçu Etibar Əsədlinin ifasında Bakı Dövlət Universitetinin məşhur 60 aliminə həsr olunmuş "İthaf" kompozisiyası təqdim edilib.

Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin ikinci kurs tələbəsi Rəşad İmanovun çıxışının ardından Universitetin 16 fakültəsi üzrə elm sahəsini əhatə edən rəqəmsal qrafikin təqdimatı olub,

Bakı Dövlət Universitetinin himni səsləndirilib.

*Baki-xeber.com*

## Heydər Əliyev Fondu Oqtay Gülalıyevin müalicəsi ilə bağlı məlumat yaydı

**Hüquq müdafiəçisi Oqtay Gülalıyevin müalicəsi hazırda İstanbulun Amerikan Xəstəxanasında davam edir.**

Heydər Əliyev Fondundan "Trend"ə verilən məlumata görə, Avrasiya Xəstəxanasında aparılan müalicədən sonra ailəsi Oqtay Gülalıyevin Amerikan Xəstəxanasına yerləşdirilməsi və orada əlavə tibbi xidmətlərin göstərilməsi ilə bağlı Fonda müraciət edib.

"Daxil olan müraciət İstanbuldakı həkimlər, eyni zamanda Fondun ekspert Şurası tərəfindən müzakirə olunub və Oqtay Gülalıyevin ailəsinin istəyi nəzərə alınaraq o, Amerikan xəstəxanasına yerləşdirilib. Amerikan xəstəxanasında Oqtay Gülalıyevin beynində hematoma təmizlənməsi və şunt əməliyyatı aparılıb, hazırda isə xəstənin səhhətinin bərpası üzrə müvafiq müalicə davam edir".

Bildirilir ki, səhiyyə, o cümlədən səhhətində ağır durumlar olan şəxslərlə bağlı Fond tərəfindən göstərilən dəstəklər daxili qaydalara əsasən müalicənin gedişinə və dinamikasına uyğun olaraq dəyərləndirilir: "Belə ki, həkimlərin mütəmadi, o cümlədən xəstəxana rejimində olan ağır xəstələrlə bağlı 10-20 gündən bir verilən rəyinə əsasən Fond tərəfindən növbəti göstərilə biləcək kömək barədə qərar verilir.

Hazırda Oqtay Gülalıyevin müalicəsinə dəstək olan Heydər Əliyev Fondu həkimlərin müntəzəm rəyini, müalicənin gedişatındakı dinamikanı əsas götürərək ailəyə müvafiq köməklik göstərir".

Qeyd edək ki, oktyabrın 29-u saat 17:20 radələrində paytaxtın Nəsimi rayonu ərazisində - 28 May küçəsi ilə Puşkin küçələrinin kəsişməsində taksi fəaliyyəti ilə məşğul olan sürücü Kənan Abdullayev idarə etdiyi "Hyundai Accent" markalı avtomobillə yolu keçən piyada, hüquq müdafiəçisi Oqtay Gülalıyevi vurub.

Nəticədə ağır xəsarət alan hüquq-müdafiəçisinin beyninə qan sızıb. Oktyabrın 30-da "City Hospital"da O.Gülalıyevin üzərində cərrahiyyə əməliyyatı keçirilib.

Onun müalicəsi Respublika Neyrocərrahiyyə Xəstəxanasında davam etdirilib.

Heydər Əliyev Fondu Oqtay Gülalıyevin müalicəsini üzərinə götürüb. Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığına əsasən, onun Türkiyəyə aparılması üçün xüsusi ambulans təyyarə ayrılıb. O, noyabrın 6-da səhər saatlarında xüsusi ambulans təyyarə ilə İstanbula yola salınıb və orada Avrasiya Xəstəxanasına yerləşdirilib.

# Qarabağda azərbaycanlıların faiz nisbəti barədə İlham Əliyevin fikirləri erməni mediasında təhrif olundu...

**Ermənistanın saxta təbliğatı indi də Prezident İlham Əliyevin Sumqayıtın 70 illiyinə həsr olunmuş tədbirdə etdiyi çıxışı təhrif etməklə məşğuldur. İlham Əliyev həmin çıxışında deyib ki, 1985-ci ildə Azərbaycan böyük çətinliklərlə üzləşmişdi.**

## *Qabil Hüseynli: "İrandan edilən köçürmələr nəticəsində həmin ərazilərdə ermənilərin məskunlaşması prosesi artıb"*

Çünki həm iqtisadi sahədə durğunluq hökm sürürdü, eyni zamanda, erməni millətçiləri baş qaldırmışdılar, həm Dağlıq Qarabağda, həm də respublikamızın digər yerlərində, o cümlədən, Sumqayıtda: "Ulu öndər Heydər Əliyevin dövründə Dağlıq Qarabağda azərbaycanlı əhalinin faiz nisbəti kəskin artmışdır, 2 dəfə artmışdır və azərbaycanlı əhali 30 faizə çatmışdır. Əgər Heydər Əliyev 1982-ci ildən sonra Moskvaya getməsəydi və Azərbaycanda qalsaydı, bəlkə də 10 il ərzində artıq orada azərbaycanlı əhali 50 faizə çatacaqdı. Dağlıq Qarabağda erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana vermək haqqında məsələ qaldırırdılar. Əfsuslar olsun ki, Azərbaycan Respublikasının rəhbərliyi bu məsələyə çox biganə yanaşırdı, öz məsuliyyətini dərk etmirdi və beləliklə, vəziyyəti nəzarətdən buraxmışdı".



## *"Doğrular ortaya çıxanda ermənilərin saxtakarlıqları bir daha özünü göstərir"*

Erməni mediası və rəsmiləri isə İlham Əliyevin bu açıqlamasını özlərinə sərf edən tərzdə yozublar. Onlar qeyd edirlər ki, guya İlham Əliyev həmin çıxışında Dağlıq Qarabağda yaşayan ermənilərin sıxışdırılaraq həmin bölgənin demoqrafik göstəricilərinin zorla dəyişdirildiyinə işarə edib. Erməni təbliğatının növbəti aşkar təhrifi nəyə hesablana bilər?

Politoloq Qabil Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ermənilər üçün bu həssas mövzudur: "Onlar bu cür yalanları uydurmaqla Dağlıq Qarabağda aborigen millət olduqlarını sübut etməyə çalışırlar. Prezident həmin çıxışında vəziyyəti olduğu kimi təsvir edib. Orada deyilmir ki, bölgənin demoqrafik göstəriciləri ermənilərin sıxışdırılması hesabına baş verib. Dağlıq Qarabağ tarixi Azərbaycan torpağıdır. Ora ermənilər sonradan köçürülüb. Bu da Çar Rusiyasının siyasəti olub. 19-cu əsrin əvvəllərində orada ermənilərin sayı bizə nisbətdə 15 faiz olub. Sonradan İrandan edilən köçürmələr nəticəsində həmin ərazilərdə ermənilərin məskunlaşması prosesi artıb. SSRİ-nin dönəmində də indiki Ermənistan ərazisindən ora köçürülmələr davam edirdi. Heydər Əliyevin Azərbaycana birinci dəfə rəhbərlik etdiyi dövrə qədər olan dönəmdə ermənilərin rəhbərliyi ora azərbaycanlıları buraxmırdı. Yəni bir azərbaycanlı gedib orada daimi yaşayıb, işləyə bilmirdi. Görürsünüzmü bölgənin demoqrafiyasını kimlər zor gücünə dəyişirdi. Heydər Əliyev hakimiyyətə gələndən sonra isə həmin maneələri aradan qaldırdı. Yeni azərbaycanlıların öz ata-baba yurdlarında məskunlaşmasına şərait yaratdı. Xüsusən də Laçın və Ermənistanın özündən Dağlıq Qarabağa köçmək istəyən azərbaycanlılara şərait yaradıldı. Həmin vaxt əhalinin nisbəti 60-40-a, bəzən hətta 60-45 oldu. Heydər Əliyevin bu yöndə atdığı addımlar qanun çərçivəsində olub. Prezident də bizim dediyimiz bu mənzərə barədə məlumat verib. Təbii ki, ermənilər həmin fikirləri təhrif edirlər. Doğrular ortaya çıxanda ermənilərin saxtakarlıqları bir daha özünü göstərir".

*Məhəmmədəli QƏRİBLİ*

# Dağlıq Qarabağın Azərbaycanlı İcması jurnalistlərin qarşılıqlı səfərini dəstəklədi

**Azərbaycan Respublikasının Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı icması erməni və azərbaycanlı jurnalistlərin bu günlərdə baş tutan qarşılıqlı səfərləri barədə bəyanat yayıb. İcma sədri Tural Gəncəliyevin imzaladığı bəyanatda deyilir:**

Məlum olduğu kimi, Azərbaycan və Ermənistandan, o cümlədən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni icmasından olan bir qrup jurnalist bu günlərdə qarşılıqlı səfərlər etmişlər.

Səfəri ATƏT-in Fəaliyyətdə olan Sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşik və onun Bakı, Yerevan və Xankəndində olan nümayəndələri təşkil ediblər.

Səfər müddətində erməni jurnalistləri azərbaycanlı həmkarları, vətəndaş cəmiyyəti nümayəndələri və tədqiqat mərkəzləri görüşlər keçirib, ölkəmizdə sərbəst və sülh şəraitində fəaliyyət göstərən provaslav rus, yəhudi, katolik kilsələləri ilə tanış olub, ASAN xidmət, DOST Mərkəzi, Gəncə və Quba şəhərlərində olublar. Həmçinin, erməni jurnalistlərin Bakının mərkəzində olan və erməni dilində olan kitabları ilə birlikdə qorunan erməni kilsəsi ilə tanış olublar.

Erməni jurnalistləri ilə görüşlərdə Dağlıq Qarabağın azərbaycanlı icması da iştirak edib.

Erməni jurnalistlər Azərbaycanın inkişafı, ölkəmizdə mövcud olan multikultural mühit, sülh və sabitlik, dövlətin vətəndaşa göstərdiyi xidmətlər, regionların çiçəklənməsini öz gözləri ilə görüb və tanış olublar.



Azərbaycanlı jurnalistlər isə ATƏT-in nəqliyyat vasitəsində Ermənistana və işğal altında olan Şuşa və Xankəndi şəhərinə səfər edib, Dağlıq Qarabağın erməni icması ilə görüşüb və müzakirələr aparıblar.

Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni icmasından olan jurnalistin Bakı, Gəncə və Qubaya səfəri, Azərbaycan jurnalistlərinin Şuşa və Xankəndi şəhərlərinə səfəri və yerli erməni icması ilə görüşləri Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni və azərbaycanlı icmaları arasında dialoqa töhfədir.

Biz həmişə Azərbaycan Respublikasının Dağlıq Qarabag bölgəsinin azərbaycanlı və erməni icmaları arasında dialoqu, dinc yanaşı yaşayışı dəstəkləmişik və təşviq etmişik. Sözügedən səfər və görüşlərə də məhz bu baxımdan yanaşırıq.

# NATO və Rusiya ali hərbi rəhbərləri növbəti dəfə tarixi görüş üçün Bakını seçdilər...

## *Generallar əvvəlcə ayrı-ayrılıqda Prezident İlham Əliyevlə görüşdülər*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 26-da NATO-nun Hərbi Komitəsinin sədri Ser Stüart Piiçin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Nümayəndə heyətinin üzvlərini salamlayan Prezident İlham Əliyev deyib:**

"Çox şadam ki, artıq neçə il ərzində Azərbaycan belə mühüm görüşlər üçün öz logistika dəstəyini və məkanını təqdim edir. Biz bunu yüksək qiymətləndiririk. Biz bunu aramızda olan dostluq və tərəfdaşlıq əlaməti hesab edirik. Həmçinin, etimad əlaməti kimi də qəbul edirik. Çünki dünyada çoxlu ölkə var. Birləşmiş Millətlər Təşkilatında, demək olar, iki yüz ölkə var. Lakin müəyyənliyə, əməkdaşlığa, risqlərin azalmasına və planetimizin daha təhlükəsiz olmasına gətirib çıxaran bu görüşlərin keçirilməsi yeri kimi Azərbaycan seçilmişdir. Biz çox şadıq və qürur hissi keçiririk ki, Azərbaycan həm NATO, həm də Rusiya tərəfindən bu görüşün keçirilmə yeri kimi seçilmişdir. Ümidvarıq ki, əvvəlki, bugünkü və növbəti görüşlər sülh və sabitliyə töhfə verəcəkdir. Bir daha xoş gəlmisiniz.

...Biz NATO-nun etibarlı tərəfdaşıyıq və bizim hərbçilərimiz Əfqanıstanda NATO hərbçiləri ilə çiyinçiyinə xidmət edirlər. Bildiyiniz kimi, bu yaxınlarda biz hərbçilərimizin sayını 30 faiz artırdıq, indi onların sayı 120 nəfərdir. Həmçinin, biz Sülh Naminə Tərəfdaşlıq Proqramı çərçivəsində də işləyirik. Eyni zamanda, Əfqanıstana gedən yüklərə mühüm logistik və nəqliyyat dəstəyini təmin edirik. Həmçinin, iki il bundan əvvəl biz Azərbaycan və Türkiyə arasında dəmir yolunun açılışını etdik və hazırda bu yoldan daşımalar üçün istifadə edilir. Digər vacib məsələ ondan ibarətdir ki, biz Lapis Lazulinin öz sistemimizlə bağlanmasına nail olduq. Biz artıq Əfqanıstandan onların ixrac etdiyi yükləri qəbul etməyə başlamışıq. Beləliklə, biz Əfqanıstana iqtisadi və sosial inkişaf üçün daha çox pul qazanmağa kömək edirik. Eyni zamanda, biz bir neçə dəfə Əfqan Milli Ordusunun Etimad Fonduna ianələr vermişik. Həmçinin, biz Əfqanıstan hökuməti ilə islahatlar üzərində yaxından işləyirik. Çox qürurvericidir ki, dövlət xidmətlərinin göstərilməsi üzrə ilk mərkəz olan ASAN, - bu nou-xaunun sahibi bizik, - Əfqanıstanda açılmışdır. Beləliklə, bu, vahid pəncərə sistemi çərçivəsində çox nadir dövlət xidmətləri mərkəzidir. İki yüzdən çox xidmət var, bunlar onlayn və çox səmərəli şəkildə göstərilir. Burada bu mərkəzin bəyənilmə səviyyəsi 100 faizə yaxındır. Bəlkə nümayəndə heyətinizin bəzi üzvləri onların birinə baş çəkə bilər, Bakıda beş mərkəz mövcuddur. Bunu biz əfqan tərəfdaşlarımıza nəyi təklif etdiyimizi görsünlər deyə deyirəm.





Əlbəttə, təhlükəsizlik və terrorla mübarizə əməliyyatları çox vacibdir, lakin ölkəyə iş yerləri, məşğulluq, sosial müdafiə, iqtisadi islahatlar lazımdır və biz bu məsələlərlə bağlı Əfqanıstan hökuməti ilə çox geniş iş aparırıq".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimovun rəhbərlik etdiyi nümayəndə heyətini də qəbul edib.



Prezident İlham Əliyev deyib: "Rusiyanın və NATO-nun ali hərbi komandanlığının Bakıda görüşlər keçirməsi yaxşı bir ənənəyə çevrilib. Biz bunu yüksək qiymətləndiririk. Keçən il üç dəfə belə görüş olub. Bu il artıq ikinci görüşdür. Yəni bu ənənə artıq yaşayır və düşünürəm ki, davam edəcək. Biz bunu bizə böyük etimad əlaməti kimi qiymətləndiririk. Ona görə ki, belə görüşlərin keçirildiyi yer çox ölkələr ola bilərdi, lakin seçim Bakının üzərinə düşüb və artıq üçüncü ildir ki, bu ənənə davam edir, - görüşlərin təməli 2017-ci ildə qoyulub, - bu, o deməkdir ki, bu məkan nəticə verir. Biz belə düşünürük.

Əlbəttə, hər bir görüş, zənnimcə, bütün dünyada ümid doğurur. Ona görə ki, təkcə bizim regionda deyil, həm də dünyada təhlükəsizlik və sülh sizin əldə etdiyiniz razılaşmalardan asılıdır. Buna görə biz, əlbəttə ki, bundan qürur duyuruq. Bunu həm də bizim aramızda böyük etimada əsaslanan münasibətlərin əlaməti kimi qəbul edirik. Bu gün ən yüksək səviyyəyə çatmış münasibətlərimizin qədim tarixi də bunu təsdiq edir.

Mehriban Əliyevanın Moskvaya dünən başa çatmış rəsmi səfəri də bizim münasibətlərin yüksək səviyyədə olmasının bir daha təsdiq etdi. Biz bu səfəri çox yüksək qiymətləndiririk. Başa düşürük ki, bu, beynəlxalq siyasətdə görünməmiş hadisədir, dövlətdə birinci şəxs olmayan adam Prezident tərəfindən, özü də dünyanın aparıcı ölkəsinin Prezidenti və dünya siyasətçiləri arasında bir nömrəli Prezident tərəfindən ən yüksək səviyyədə qəbul edilir. Zənnimcə, bu, təkcə mənim fikrim deyil, rəhbərlərin böyük əksəriyyətinin fikridir. Biz dəvət faktının özünü, münasibətlərin səviyyəsini, Mehriban Əliyevanın şəxsən Prezident tərəfindən ali "Dostluq" ordeni ilə təltif edilməsini və bu təltifdən sonra deyilən sözləri çox yüksək qiymətləndiririk. Biz bütün bunları çox yüksək qiymətləndiririk və əlbəttə, şadıq ki, ölkələrimiz arasında münasibətlər bu cür yüksək səviyyəyə çatıb. Əlbəttə, Hökumətin sədri ilə, Federasiya Şurasının sədri ilə görüşlər də çox konstruktiv, zəngin olub və həmçinin, regionlararası yubiley forumunun keçirilməsi və Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində "Azərbaycan" pavilyonunun açılması - bütün bunlar bizim əlaqələrin möhkəmlənməsi işində çox mühüm addımlardır. Əminəm ki, növbəti il də səmərəli olacaq. Gələn ay Vladimir Vladimiroviçlə görüşümüz olacaq.

Əlbəttə, sizin məşğul olduğunuz sahədə də müsbət dinamikanı görürük. Sizin Bakıya hər gəlişiniz, o cümlədən, hərbi əməkdaşlığı, çox uğurla inkişaf edən hərbi-texniki əməkdaşlığı bir daha müzakirə etmək və gələn il qarşılıqlı fəaliyyətin yollarını müəyyənləşdirmək üçün bir fürsətdir. Hesab edirik ki, Rusiya ilə Azərbaycan arasında həm ənənəvi istiqamətlərdə, həm də yeni istiqamətlərdə əməkdaşlıq potensialını artırmağa imkan var. Ona görə də bir daha xoş gəlmisiniz. Qarşıdakı görüşdən yaxşı nəticələr arzu edirəm".

Görüşdə tərəflər beynəlxalq və regional təhlükəsizlik problemlərini, həmçinin, hərbi və hərbi-texniki əməkdaşlığın aktual məsələlərini, o cümlədən, müdafiə idarələrinin Xəzərdə qarşılıqlı fəaliyyətini müzakirə ediblər.

Elə həmin gün Bakıda Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimov və NATO-nun Hərbi Komitəsinin sədri Stüart Piiç arasında görüş keçirilib.

Görüş zamanı Avropa təhlükəsizliyi sahəsində vəziyyət, Rusiya-NATO təmas xəttində insidentlərin qarşısının alınması üzrə tədbirlər, o cümlədən, hərbi ekspertlərin dialoqunun bərpa olunması məsələsi müzakirə olunub. Onlar, həmçinin, böhran regionlarında vəziyyəti müzakirə edib.

Bu, V.Gerasimovla iyun ayında NATO Hərbi Komitəsinin sədri vəzifəsinə təyin olunan S.Piiç arasında ilk görüşdür. Bunadək onlar yalnız telefon danışıqları keçirib.

**Birinci vitse-prezident Mehriban Əliyevanın Rusiya səfərini dəyərləndirən ekspertlər bildirir ki, əldə olunan yeni razılaşmalar fonunda qarşıdakı dövr ərzində şimal qonşumuzla ölkəmiz arasında iqtisadi sahədə əməkdaşlığın daha da dərinləşməsini gözləmək olar.**

# Mehriban Əliyevanın Rusiyada görüşlərindən sonra yeni hədəf - Azərbaycana 2 milyon rus turist...

Digər tərəfdən, bu səfər bəzi məqamlarına görə mühüm yeniliklərlə də yadda qaldı. Elə birinci vitse-prezidentin Rusiyaya rəsmi səfərinin iqtisadi sahədə yekunları sırasında Azərbaycan-Rusiya tərəfdaşlığının daha bir yol xəritəsi sayılan innovasiyalar və elmi texnologiyalar sahəsində yeni əməkdaşlığın əsasının qoyulmasını buna misal kimi göstərmək olar.

Xatırladaq ki, iki ölkə arasında ötən il imzalanmış plana müvafiq olaraq, 2024-cü ilədək olan dövr üçün Rusiya-Azərbaycan əməkdaşlığının əsas istiqamətlərinə ümumilikdə 5 yol xəritəsi daxildir. Bu əməkdaşlıq istiqamətləri ticarətin və qarşılıqlı sərmayələrin həcminin artırılması, nəqliyyat potensialının inkişafı, birgə müəssisələrin yaradılması, rəqəmsal texnologiyaların tətbiqi, büdcə-vergi sektorunda təcrübə mübadiləsi və humanitar əlaqələrin inkişafına yönəldilib. İndi innovasiyalar və elmi texnologiyalar sahəsində də tərəflərin yeni əlaqəsinə start verilir. Buna qədər isə tərəflər iqtisadi sahədə əməkdaşlığı daha da dərinləşdirməyi düşünür. Bu halın Azərbaycan üçün əsas üstünlüklərindən biri qeyri-neft sahəsinin inkişafının daha dinamik hala gəlməsidir. Real vəziyyət göstərir ki, Azərbaycanda qeyri-neft sektorunun inkişafı Rusiyadan müəyyən mənada asılı vəziyyətdədir. Söhbət ölkəmizin real ixrac imkanlarından gedir. Bütün iqtisadi aspektlər nöqteyi-nəzərindən qeyri-neft məhsullarımız üçün məhz Rusiya bazarlarına ixrac səmərəli və məqsədəuyğun xarakter daşıyır. İndi əldə edilən yeni razılıqlar fonunda Azərbaycan Rusiyaya qeyri-neft sektorunda hasil edilən daha çox həcmdə məhsul satacaq. Bura ilk növbədə aqrar məhsullar daxildir. Kənd təsərrüfatı nazirinin müşaviri Anar Hüseynov da qeyd edir ki, Rusiya bazarı Azərbaycanın kənd təsərrüfatı məhsulları üçün ənənəvi bazardır:"Bu ölkəyə ixracda kənd təsərrüfatı məhsulları xüsusi yer tutur. Azərbaycanın meyvə-tərəvəz məhsulları Rusiyada çox sevilir. Bu baxımdan iki ölkə arasında aqrar ticarətin genişləndirilməsi, aqrar tədqiqatlar sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi ilə bağlı birgə layihələrin həyata keçirilməsi istiqamətində geniş müzakirələr apardıq. Ümid edirəm ki, əlaqələrimiz daha da inkişaf edəcək. Kənd təsərrüfatı məhsullarının ixrac potensialı daha da artacaq". Ümumiyyətlə, qarşıdakı dövr ərzində Azərbaycan Rusiyaya ixrac etdiyi aqrar məhsulların həcmini 1,5 milyard dollara çatdırmağı düşünür.

Hazırda Azərbaycan kənd təsərrüfatı məhsullarının Rusiya bazarına ixracatı 600 milyon dollara yaxın təşkil edir. Rusiya-Azərbaycan Regionlararası Forumu çərçivəsində aparılan qısa təhlil nəticəsində bu rəqəmi azı 2 dəfə artırmaq mümkün olduğu qənaətinə gəlinib. Bu sıraya sənaye, emal müəssisələrimizin də istehsal mallarını əlavə etmək mümkündür. Deməli, Azərbaycan Rusiyaya qeyri-neft sektoru üzrə daha çox məhsul satacaq.

Digər tərəfdən o da faktdır ki, Rusiyanın ayrı-ayrı regionları Azərbaycanla əməkdaşlığı genişləndirməyə xüsusi maraq göstərir. Rusiyalı ekspert Darya Qrevtsova bildirir ki, əslində regionlararası əlaqələr Rusiya-Azərbaycan münasibətlərinin vacib hissəsidir:"Rusya ilə Azərbaycan arasında münasibətlər bütün sahələrdə, o cümlədən iqtisadiyyat, təhsil, mədəniyyət, hərbi və humanitar sahələrdə inkişaf edir. Azərbaycanın regionları ilə Rusiyanın 70-dən çox regionu sıx işləyir. Azərbaycanda Rusiyanın enerji korporasiyaları uğurla fəaliyyət göstərir. Avtomobilqayırma sahəsində əməkdaşlığın dərinləşməsi üçün yaxşı imkanlar var. Nümunə kimi "KamAZ"ın işini göstərmək olar, bu istiqamətdə texniki yığılma və avtomobillərə xidmətlər göstərilir. "AvtoVAZ" Azərbaycanın bütün regionlarında "Lada" avtomobillərinin pərakəndə satışı üçün 40-dan çox şöbə yaradıb. Öz növbəsində azərbaycanlı investorlar Rusiyada kənd təsərrüfatı obyektlərinin tikintisində fəal iştirak edir. Rusiya və Azərbaycan birgə infrastruktur layihələri reallaşdırır. Xəzər dənizinin statusu barədə Konvensiyanın imzalanması da dövlətlərimiz arasında qarşılıqlı səmərəli əməkdaşlıq üçün yeni imkanlar yaradır. Bu, ilk növbədə nəqliyyat, yük daşımaları, neft, qaz hasilatı, ekologiya və digər sahələrə aiddir. Turizm sahəsində ikitərəfli əlaqələr intensiv inkişaf edir. Bir sözlə, Rusiya ilə Azərbaycan arasında əlaqələr qarşılıqlı etimada əsaslanan etibarlı strateji tərəfdaşlığı nəzərdə tutur. Rusiya haqlı olaraq Cənubi Qafqazda aparıcı strateji və ticari-iqtisadi tərəfdaş hesab olunan Azərbaycanla davamlı və sıx əməkdaşlıqda maraqlıdır".




Dövlət Dumasının deputatı Dmitri Savelyev də bildirir ki, son bir neçə ildə Rusiya ilə Azərbaycan arasında iqtisadi, siyasi və mədəni sahələrdə münasibətlər intensiv inkişaf edir. O qeyd edir ki, Mehriban Əliyevanın Rusiya-Azərbaycan regionlararası forumla bağlı səfəri əlaqələrin əhəmiyyətini daha da artırır. "Deyərdim ki, Azərbaycan Rusiyanın yeganə etibarlı tərəfdaşıdır". Rusiyalı deputat turizm sahəsində əməkdaşlığın vacibliyini də qeyd edib: "Turizm ölkələrimiz arasında ikitərəfli münasibətlərin möhkəmlənməsinə yardım edən çox vacib sahədir. Həqiqətən də, ruslar Azərbaycana nə qədər çox qonaq gəlsələr, o qədər də ölkəni çox sevəcəklər. Bir rus atalar sözü var: "On dəfə eşitməkdənsə, bir dəfə görmək daha yaxşıdır". Azərbaycana gedən ruslar oradan laqeyd qayıtmırlar. Bu çox vacibdir". Qeyd edək ki, hazırda Azərbaycana ən çox turist məhz Rusiyadan gəlir və gələn il ərzində onların sayının 1 milyona satması gözlənilir. Həmin tursitlərin sayının daha da artması Azərbaycan üçün prioritet məsələlərdən biridir və bu istiqamətdə intensiv işlər aparılır. Xatırladaq ki, bu sahədə çox müasir infrastruktur yaradılıb. Regionda ən müasir turizm infrastrukturu məhz Azərbaycandadır. O da məlumdur ki, regionda Gürcüstan bu sahədə Azərbaycana rəqib olub. Ancaq son illərdə Azərbaycan bu istiqamətdə Gürcüstanı geridə qoya bilib. Hesab edilir ki, görülən işlərin miqyası genişlənsə, Rusiyadan ildə 2 milyona yaxın insanın gəlişinə nail olmaq mümkündür. Bu isə Rusiya - Azərbaycan iqtisadi əlaqələrinin daha geniş spektri əhatə etdyini, Mehriban Əliyevanın Rusiya səfərinin prosesə əlavə təkan verdiyini deməyə əsas verir.

***Ramil QULİYEV***

# Valeh Ələsgərov vitse-spikerlikdən və MM üzvlüyündən gedəcək?...

**Məlum olduğu kimi, Prezident İlham Əliyev Valeh Ələsgərovun Ələt azad iqtisadi zonasının müvəqqəti idarəetmə qurumunun sədri təyin edilməsi haqqında sərəncam imzalayıb. Belə ki, sərəncama əsasən V.Ələsgərov Ələt azad iqtisadi zonasının İdarə Heyəti formalaşana qədər qurumun sədri vəzifəsini icra edəcək.**



Məlumat üçün qeyd edək ki, V.Ələsgərov 2005-ci ilin dekabrından Milli Məclis sədrinin müavinidir. O, 2005-ci il noyabrın 6-da 102 saylı Samux-Şəmkir seçki dairəsindən deputat seçilib. Bununla belə, Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya məsələləri daimi komissiyasının sədridir. Avropa İttifaqı-Azərbaycan parlament əməkdaşlığı komitəsinin rəhbəridir.

Göründüyü kimi, V.Ələsgərov bir neçə vəzifəni icra edir. Adətən parlamentdə təmsil olunanlara icraedici qurumda yeni vəzifə verilləndə, onların parlament fəaliyyətinə xitam verilir. Yaxud da onlar özləri yeni vəzifəyə təyinat almaları ilə əlaqədar könüllü şəkildə mandatdan imtina edirlər. Ancaq elələri var ki, yeni vəzifəyə təyinat almalarına rəğmən, parlamentin üzvü olaraq qalırlar. Belə hallar da var.

***Aydın Hüseynov:*** *"Ələsgərov Ələt azad iqtisadi zonasının müvəqqəti idarəetmə qurumunun sədri təyin edildiyi üçün onun əvvəlki vəzifələrdən getməsi mütləq deyil"*

Bütün bunların fonunda maraqlıdır, Ələt azad iqtisadi zonasının müvəqqəti idarəetmə qurumunun sədri təyin edildiyi üçün V.Ələsgərov vitse-spikerlikdən və MM üzvlüyündən gedəcəkmi?

Sözügedən məsələyə aydınlıq gətirən millət vəkili Aydın Hüseynovun sözlərinə görə, V.Ələsgərov Ələt azad iqtisadi zonasının müvəqqəti idarəetmə qurumunun sədri təyin edildiyi üçün onun əvvəlki vəzifələrdən getməsi mütləq deyil: "Nəzərə almaq lazımdır ki, V.Ələsgərova bu vəzifə həvalə olunub.

*"Fikrimcə, sonrakı mərhələdə qanunvericilik çərçivəsində hər bir şey öz həllini tapır"*

O, uzun müddət Dövlət Neft Şirkətində çalışıb və şirkətin xarici iqtisadi əlaqələr şöbəsinə rəhbərlik edib. Ölkə Prezidentinin, eləcə də ulu öndər Heydər Əliyevin neft strategiyası ilə bağlı geniş məlumata və praktiki təcrübəyə malik olan şəxslərdən biridir. Digər tərəfdən, uzun müddətdir qanunverici orqanda fəaliyyət göstərir. Ələt azad iqtisadi zonası haqqında qanunun qəbul olunmasında deputat olaraq çox böyük təşəbbüsü var. Sözügedən qanunla bağlı bir sıra ölkələrin qanunvericiliyini və bunun tətbiqi mexanizmini öyrənib.

**Bir sözlə, bu işdə fəal millət vəkili olaraq prosesdə çox aktiv iştirak edib. Bütün bunları nəzərə alaraq cənab Prezident sözügedən vəzifəni ona həvalə edib. Fikrimcə, sonrakı mərhələdə qanunvericilik çərçivəsində hər bir şey öz həllini tapır. Çünki qanun çərçivəsində bütün bunların həll ediləcəyinə heç bir şübhə yoxdur".**

***Vidadi ORDAHALLI***

# Erməni jurnalistlər Azərbaycandakı tolerantlıq barədə bir kəlmə də yazmadılar, halbuki, kilsəni gözləri ilə gördülər...

**Məlum olduğu kimi, ATƏT-in təşkilatçılığı ilə Azərbaycandan və Ermənistandan olan bir qrup jurnalist bu günlərdə qarşılıqlı səfərlər ediblər. Səfər müddətində erməni jurnalistlər azərbaycanlı həmkarları, vətəndaş cəmiyyəti nümayəndələri və tədqiqat mərkəzləri ilə görüşlər keçirib, ölkəmizdə sərbəst və sülh şəraitində fəaliyyət göstərən pravoslav rus, katolik kilsələri, yəhudi sinaqoquna baş çəkib, həmçinin, "ASAN xidmət", DOST mərkəzi, Gəncə və Quba şəhərlərində olublar. Onlara Bakının mərkəzində olan və erməni dilində kitabları ilə birlikdə qorunan erməni kilsəsi ilə tanış olmaq imkanı da verilib.**



Erməni jurnalistlər ölkəmizdə olarkən Azərbaycanın inkişafı, ölkəmizdə mövcud olan multikultural mühit, sülh və sabitlik, dövlətin vətəndaşa göstərdiyi xidmətlər, regionların çiçəklənməsini öz gözləri ilə görsələr də, bu barədə bir cümlə də olsa qeyd etməyiblər. Onların burada yaxından müşahidə etdikləri multikulturalizm mühiti, tolerantlıq, təbii ki, öz ölkələrində yoxdur. Ermənistan monoetnik dövlət kimi bütün bu kimi ali göstəricilərdən məhrumdur.

***Azər Həsrət:*** *"Erməni jurnalistlər Azərbaycana gəlib burada gördükləri tolerantlığı, multikulturalizmi, inkişafı yazıb erməni cəmiyyətinə çatdırmırlarsa, bu onların və arxalarında duran Ermənistan hökumətinin qeyri-səmimiliyindən xəbər verir"*

Əməkdar jurnalist, tanınmış media eksperti Azər Həsrət bizimlə söhbətində bildirdi ki, Azərbaycanda mövcud olan və bütün dünya üçün örnəyə çevrilən multikulturalizm, tolerantlıq haqqında erməni jurnalistlərinin yazmaması, danışmaması erməni xislətindən irəli gələn məsələdir. A.Həsrətin sözlərinə görə, Azərbaycanın hərtərəfli inkişafı, sivil dövlətə çevrilməsi, ölkəmizin inkişaf və tərəqqi içində olması erməni jurnalistlərini əməlli-başlı məyus edib. "Erməni jurnalistlər Azərbaycana gəlmədən belə buradakı inkişaf, tərəqqi, multikulturalizm mühiti haqqında məlumata malik idilər. Onlar açıq şəkildə görür və hiss edirlər ki, Azərbaycan xalqının, dövlətinin erməni xalqı ilə heç bir problemi yoxdur, bizim problemimiz erməni işğalı ilə bağlıdır. Ermənistan Azərbaycan torpaqlarını işğal edib, Azərbaycan dövləti və xalqı da torpaqlarımızın işğaldan azad edilməsi üçün çalışır. İndi erməni jurnalistlər Azərbaycana gəlib burada gördükləri tolerantlığı, multikulturalizmi, inkişafı yazıb erməni cəmiyyətinə çatdırmırlarsa, bu barədə danışmırlarsa, bu onların və arxalarında duran Ermənistan hökumətinin qeyri-səmimiliyindən xəbər verir. Erməni jurnalistlər Azərbaycanda kilsələrdə, dini məbədlərdə, o cümlədən, dövlət tərəfindən qorunan erməni kilsəsində oldular, amma onlar burada gördükləri haqda gedib ölkələrində danışmadılar. Azərbaycana gələn erməni jurnalistlər Ermənistan mediasında yazmadılar ki, biz ölkəmizdə, eləcə də işğal etdiyimiz Dağlıq Qarabağ torpağında bir dənə də olsa türk abidəsi saxlamamışıq, amma Azərbaycan dövləti tolerantlıq nümayiş etdirərək Bakının mərkəzindəki erməni kilsəsini qoruyur, saxlayır. Erməni jurnalistlər məhz bu amilləri qabartmalıdırlar. Amma onlar bunu yazmırlar. Çünki Azərbaycandakı tolerant mühit, inkişaf onların ürəyincə deyil".

A.Həsrət qeyd etdi ki, Ermənistana və Dağlıq Qarabağa səfər edən azərbaycanlı jurnalistlərin səfər təəssüratları hələ ki, mediada işıqlandırılmayıb. Onun fikrincə, Azərbaycan jurnalistləri Ermənistanda və erməni işğalı altında olan Dağlıq Qarabağda erməni jurnalistlərinin Azərbaycanda gördüklərinin tam əksini görüblər. Onun sözlərinə görə, ermənilər Ermənistandakı türk-müsəlman abidələrini dağıdıb, xristian-alban abidələrini isə erməniləşdiriblər, Dağlıq Qarabağda isə bizə aid abidələrin, dini ocaqların izlərini siliblər.

***İradə SARIYEVA***

# Bakıdan pulları Moskvaya daşıyıb böyük biznes quran Rəhim Qazıyev imiş - 27 il əvvəlki fakta görə cinayət işi açmaq olarmı...

**"Bakıda yığdıqları pulları Moskvaya daşıyırdı. Orada özü üçün böyük biznes qurmuşdu. Lazım olarsa, bu barədə də məlumat veriləcək". Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Sumqayıt Dövlət Dram Teatrında şəhərin 70 illiyinə həsr olunmuş tədbirdə çıxışı zamanı keçmiş müdafiə naziri Rəhim Qazıyevin fəaliyyətinə toxunarkən deyib.**



***Əliməmməd Nuriyev:** "AXC hakimiyyəti dövründə Azərbaycanın pullarını Moskvaya şəxsi mənafeyi üçün aparan Rəhim Qazıyev məsuliyyətə cəlb oluna bilər"*

Prezident qeyd edib ki, R.Qazıyev savadsızın biri, demaqoq, küçə adamı olub. "Nə ilə yadda qaldı? Şuşanı ermənilərə satdı. O, Şuşanı birinci tərk etdi. Özü demişdi ki, - o kadrlar var, tarix hər şeyi saxlayır, arxivlər var, - Şuşa əldən getsə, başıma güllə vuracağam. Yenə də meydanlarda sülənir, özünü elə aparır ki, guya heç kim bilmir, bunun keçmişi nədir. Bax, belə bir adam müdafiə naziri ola bilərdimi? Belə bir adam bizim ərazi bütövlüyümüzü qoruya bilərdimi?".

Prezident çıxışı zamanı AXC hakimiyyəti dövründə vəzifədə olan heç bir şəxsin adını çəkmədi. Ancaq söhbətin kimlərdən getdiyi ictimaiyyətə məlumdur .

O dövrdə Azərbaycandan daşınaraq Moskvaya aparılan pullar sayəsində biznes qurulub. Təbii ki, bu faktda cinayət tərkibi var. Maraqlıdır, 1992-1993-cu illərdə qeydə alınmış məlum hadisəyə görə cinayət işi qaldırmaq olarmı?

"Konstitusiya Araşdırmalar Mərkəzi"nin rəhbəri, hüquqşünas Əliməmməd Nuriyev "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, AXC hakimiyyəti dövründə bu kimi cinayətlərə görə 14 il azadlıqdan məhrumetmə nəzərdə tutulur. Hüquqi baxımdan müddətin keçmə məsələsi var: "Ancaq bu ağır cinayətdir. Ölkənin ağır günlərində Azərbaycanın vəsaitlərinin Moskvaya aparılması vətənə xəyanət sayılır. Prezident çıxışı zamanı AXC hakimiyyəti dövründə ölkənin vəsaitlərinin Moskvaya aparılıb orada şəxsi biznes qurulması məsələsinə toxunub. Bu fakt cinayət xarakterlidir. Prezident ad çəkməsə belə, söhbətin R.Qazıyevdən getdiyi bəllidir. R.Qazıyevin Azərbaycan dövlətinə nə cür ziyanlar vurduğunun fərqindəyik. O hər zaman fərdi oyunlar aparmış şəxs olub.

*"...o hər zaman fərdi oyunlar aparmış şəxs olub"*

Müddət keçsə də, insanlar baş vermiş hadisələri unutmamalıdırlar. Kimin nə etdiyi, hansı fəaliyyətlə məşğul olduğu Azərbaycan xalqının tarixi yaddaşındadır. Etibarlı müdafiə sisteminin yaradılmaması torpaqların itirilməsinə səbəb oldu. Sonrakı müddət ərzində onun necə fəaliyyət göstərdiyi göz qabağındadır. Onu da bildirim ki, Sürət Hüseynovun qiyam qaldırması prosesində R.Qazıyevin də rolu danılmazdır. Bununla bağlı adıçəkilən şəxs adını təmizə çıxarsa da, tarix bunun tam əksini sübut edir.

Həmçinin, Şuşanın əldən getməsində R.Qazıyevin xüsusi rolu olub. Bir çoxları düşünür ki, müəyyən zaman keçəndən sonra Azərbaycan dövlətinə xəyanət edənlərin hərəkətlər unudulur. Ancaq bu belə deyil. Azərbaycan torpaqlarının itirilməsində müstəsna xidmətləri olan bir çox şəxs var. Onlardan biri də R.Qazıyevdir".

Həmsöhbətimiz onu da əlavə etdi ki, AXC hakimiyyəti dövründə Azərbaycanın pullarını Moskvaya şəxsi mənafeyi üçün aparan R.Qazıyev məsuliyyətə cəlb oluna bilər.

***Günel CƏLİLOVA***

# Paşinyan Avropada Azərbaycan barədə saxta ermənifobiya faktları yaymağa çalışdı...

**Ermənistanın Baş naziri Nikol Paşinyan "Corriere della Sera" qəzetinə müsahibəsində guya ermənofobiya fenomeninin Azərbaycanda geniş yayılmasından danışıb. O bildirib ki, Avropa ölkələri bu barədə kifayət qədər məlumatlandırılmayıb.**



***Elşən Mustafayev:** "Paşinyan kimi diletant siyasətçilər məsuliyyətsiz çıxışları ilə özlərini ifşa edirlər"*

Gəlin Paşinyanın müsahibəsində arqument kimi təqdim etdiyi faktların saxtalığına diqqət edək: "Məsələn, ötən ilin yazında Azərbaycanın paytaxtı Bakıda keçirilən Avropa Liqasının finalında o zaman "Arsenal" və hazırda "Roma"nın oyunçusu Henrix Mxitaryan iştirak edə bilmədi. Niyə? Çünki onun erməni soyadı Azərbaycanda böyük bir məsələdir. Onun soyadını daşıyan köynək geyən avropalı azarkeşlər polis tərəfindən dayandırılıb. Bir həftə əvvəl bir azərbaycanlı sürücü erməni musiqicinin mahnısını dinlədiyi üçün həbs olundu. Keçən ildə isə ABŞ, Rusiya və Türkiyənin bəzi vətəndaşlarının soyadları erməni soyadlarına bənzədiyi üçün Azərbaycana girməməsi halları oldu. Bu vəziyyətin Azərbaycan hökumətinin rəsmi siyasəti ilə nə əlaqəsi var?"

Baş nazir müsahibəsində erməni zabit Qurgen Marqaryanın öldürülməsindən də danışıb: "Ermənistan Silahlı Qüvvələrinin zabiti Qurgen Marqaryan yatarkən azərbaycanlı zabit Ramil Səfərov tərəfindən balta ilə öldürüldü. Hər ikisi NATO seminarında iştirak etmək üçün Budapeştdə idi. Bu, 2004-cü ildə baş verdi. Macarıstanda ömürlük həbs cəzasına məhkum edildikdən bir neçə il sonra azərbaycanlı zabit öz ölkəsinə ekstradisiya edildi. Vətəndə milli qəhrəman kimi qəbul edildi, Prezident İlham Əliyev tərəfindən əfv olundu, ona Bakıda mənzil verildi ".

Göründüyü kimi, əsaslı arqument tapa bilməyən Paşinyan Azərbaycana qarşı yenə yalanlar uydurmaqla məşğuldur. Onun guya ermənifobiya elementi kimi təqdim etdiyi bütün faktlar səslənib və rəsmi Bakı tərəfindən ciddi arqumentlər ortaya qoyularaq təkzib olunub. Paşinyanın saxta ermənifobiya uydurması onlara hansısa dividend gətirə bilərmi?

Azərbaycan Milli İstiqlal Partiyasının funksioneri Elşən Mustafayev "Bakı-Xəbər"ə bildirdi ki, Paşinyan bu mövqeyi ilə bir daha saxta siyasət yürütdüyünü sübut etmiş oldu: "Ermənistanda islamofobiya və başqa millətlərə qarşı olan fobiya mövcuddur. Bunu yalnız biz demirik. Dünyanın nüfuzlu təşkilatları belə bu faktı etiraf edirlər. Dövlət başçıları fərziyə ilə danışmamalıdırlar. Onlar fikirlərini konkret fakta əsaslanıb söyləməlidirlər ki, yalanları ifşa olunmasın. İndi internet, sürətli kommunikasiya əsridir. İnformasiya bir neçə saniyənin içərisində 10 minlərlə kilometri yarıb keçə bilir. Azərbaycanda ermənifobiya olsaydı, bura da Ermənistan kimi monoetnik olardı və bir nəfər də olsun erməni millətinin nümayəndəsi tapmaq mümkün olmazdı. Azərbaycanda erməni əsilli vətəndaşların yaşadığını Ermənistanın özü də etiraf edir. Paşinyanın dediyi futbolçu məsələsində də erməni təbliğatı ifşa olundu. Bəlli oldu ki, həmin futbolçu oynadığı komandanın heç əsas heyətinə buraxılmayıb. Sadəcə, futbol oynamağı bacarmadığı üçün belə üsulla özünü reklam edib, baha satmaq istədi. Bilirik ki, Azərbaycanda keçirilən idman yarışlarında erməni əsilli idmançılar dəfələrlə çıxış ediblər və onların təhlükəsizliyi üçün hansısa problem yaranmayıb. Paşinyanın əsaslandığı digər fakt da yalandır. Azərbaycanda saxlanan sürücü ilə bağlı məsələdə təxribat elementi olub. Onlar yalnız avtomobildə erməni mahnısına qulaq asmırdılar, həm də erməncə təxribatçı söhbət edirdilər. Şübhəsiz ki, müharibə şəraitində olan ölkədə belə faktlar dəqiq araşdırılmalıdır. Bu məsələdə də ermənifobiya elementi axtarmaq doğru deyil. Erməni soyadlı başqa ölkə vətəndaşları ilə bağlı yoxlamanın ciddi aparılması da doğru addımdır. Bu məsələdə Azərbaycan öz təhlükəsizliyini qoruyur. Çünki bir neçə dəfə Bakıda törədilən və törədilməsinə cəhd olunan terror hadisələrində erməni izi aşkar olunub. Bu baxımdan da həmin kateqoriyadan olan şəxslərlə bağlı ciddi yoxlamaların aparılmasında heç bir qəbahət görmürəm. Ermənistan bunun belə olmamasını istəyirsə, özü bu barədə düşünüb, qonşuları ilə əminamanlıq şəraitində yaşamaq siyasətini həyata keçirməlidir. İşğaldan əl çəkiləcəyi təqdirdə iki xalqın qonşu yaşaması, kommunikasiyaların bərpasında da problem olmaz.

Ramil Səfərov isə Azərbaycan bayrağını təhqir edən bir erməni zabitini öldürüb. Zabitimizin psixologiyasında yaranan bu amildə də erməni işğalının təsiri olub. Səfərov doğma yurdu işğal olunan bir zabitdir. Törətdiyi əməldə bu amilin də buraxdığı izlər az olmayıb. Onun Azərbaycan xalqı tərəfindən sevilməsinin isə ermənifobiya ilə heç bir əlaqəsi yoxdur. Bütün bunlar bir daha sübut edir ki, Paşinyan kimi diletant siyasətçilər məsuliyyətsiz çıxışları ilə özlərini ifşa edirlər".

***Məhəmmədəli QƏRİBLİ***

# Paşinyan Hitlerə xas ölüm krematoriyalarının yaradılmasına qərar verdi

**Ermənistanda mənəvi böhran o qədər dərinləşib ki, bu ölkədə diriyə hörmət olmadığı kimi, ölüyə də hörmət yoxdur. Bəzən dirisinə hörmət edə bilməyəni ölüsünə hörmət edən görürük, amma bu, Ermənistanda belə deyil.**



## *Əhməd Qəşəmoğlu: "Ermənistanda krematoriya tikilməsinə təəccüblənmək lazım deyil, çünki onlar bu işin əsasını qoyan millətlərdəndir"*

Ermənistanda daha ölülər torpağa basdırılmayacaq, onların cəsədləri yandırılacaq. Düşmən ölkənin mətbuatının verdiyi məlumat görə, burada hökumət 2020-ci ildə İrəvanda iki krematoriya tikilməsinə dair qərar qəbul edib. Bu barədə əhaliyə xüsusi xidmət qurumunun rəhbəri Arman İsgəndəryan məlumat verib. O deyib ki, ölülərin yandırılması dəfnindən daha ucuz başa gəldiyinə görə krematoriyalara ehtiyac getdikcə artır və o üzdən, İrəvanda üzümüzə gələn ildə eyni vaxtda iki krematoriyanın tikilməsinə qərar verilib.

İsgəndəryan deyib ki, sözügedən layihəyə sərmayə qoymağa hazır iş adamları da var, üstəlik, qanunvericilik də belə müəssisələrin tikilməsinə qarşı deyil. "İnsanların seçim imkanı olmalıdır. İndiyə kimi bir çoxunun ölüsünü Moskvaya aparaıraq onun külü ilə qayıtdığını görmüşük, çünki İrəvanda buna şərait yox idi. Üstəlik, buna tələbat da artıb, çünki bu, ənənəvi dəfn mərasimlərindən daha ucuz başa gəlir"- o deyib.

Ermənistanda krematoriyaların tikintisinin təəccüblü olmadığını deyən professor, tanınmış sosioloq Əhməd Qəşəmoğlu "Bakı-Xəbər"ə bildirdi ki, ümumiyyətlə, dünyada ilk krematoriyaları elə ermənilər özləri tikiblər. Onun sözlərinə görə, ermənilər bu addımı atmaqla faşizm ideyalarını dəstəklədiklərini ifadə edirlər.

Ə.Qəşəmoğlu, həmçinin, qeyd etdi ki, evtanaziya ilə də məşğul olan erməni olub. O bildirdi ki, sağalmaz xəstəlikdən əziyyət çəkən insanları "Doktor ölüm" ləqəbli erməni əsilli amerikalı Con Gevorkyan öz razılıqları ilə ölümə yollayırdı. Müsahibimizin sözlərinə görə, "Doktor ölüm" ömürlük həbsə məhkum edilmişdi. "Ölülərin yandırılması ənənəsi xristian inanclı ölkələrdə geniş yayılıb. Çox maraqlıdır ki, bu ölkələrdə də belə məsələlərdə ermənilər xüsusilə fərqlənirlər, onlar ölülərin krematoriyalarda yandırılmasını təbliğ edirlər. Ermənilər xarici ölkələrdə də təbliğat aparırlar ki, ölüləri basdırmayın, yandırın, ölülər torpağa basdırıldıqda yer tuturlar və s. Onu da deyim ki, bəzi ağır xəstəliklərdən əziyyət çəkən insanlar "asan ölüm" istəyirlər. Evtanaziya ideyasını da əsas dəstəkləyənlər və bunu həyata keçirənlərdən biri Amerikada yaşayan erməni əsilli həkim idi. Ona görə də Ermənistanda krematoriya tikilməsinə təəccüblənmək lazım deyil, çünki onlar bu işin əsasını qoyan millətlərdəndir. Deyim ki, ölmüş insanların

*"Çox maraqlıdır ki, bu ölkələrdə də belə məsələlərdə ermənilər xüsusilə fərqlənirlər, onlar ölülərin krematoriyalarda yandırılmasını təbliğ edirlər"*

cəsədinin yandırılması faşizm və ermənizmlə bağlıdır, bu, insanlığa qarşı ən böyük cinayətdir. Ölülərin dəfn edilməməsi, onların krematoriyalarda yandırılmasını heç bir din qəbul etmir, bu, Allahsızlıqdır. Xristian dini də, islam dini də, qeyri-ənənəvi dinlər də meyitlərin yandırılmasının tərəfdarı deyil. Bu, ölüyə işgəncədir. Ermənilər azərbaycanlıları boruların içinə yığıb o baş-bu başını qaynaqlayırdılar, camaatımızı diri-diri yandırırdılar. Ermənilərdə qəddarlıq o qədər güclüdür ki, onlar nəinki qeyri-erməniləri yandırırdılar, hətta öz soydaşlarını yandırmağa hazırlaşırlar".

**Ə.Qəşəmoğlu bildirdi ki, Moskvada hələ illər əvvəl krematoriyalar yaradılıb və fəaliyyət göstərir. Onun sözlərinə görə, krematoriyada daha çox xüsusi xidmət orqanlarında işləmiş insanları öz vəsiyyətlərinə uyğun olaraq yandırırlar. Məxfi fəaliyyət göstərən insanların bir çoxunun izini itirmək üçün belə vəsiyyət etdiklərini nəzərə çatdıran Ə.Qəşəmoğlunun dediyinə görə, ermənilərdən nə desən gözləmək olar, bu da onların dinsizliyindən, Allahsızlıqlarından və qeyri-insani xarakterlərindən irəli gəlir.**

*İradə SARIYEVA*

# Almaniyanın Miqrasiya təşkilatından Ermənistana sərt təyinat - "monoetnik dövlət"...

**Almaniyanın Miqrasiya və qaçqınlar üzrə Federal Komitəsi Ermənistandan miqrasiya və mövcud sosial-iqtisadi vəziyyət barədə hesabat dərc edib. Hesabat bu ölkədə miqrasiya ilə bağlı vəziyyətin acınacaqlı durumda olduğunu üzə çıxarıb.**



Qeyd olunur ki, hər il on minlərlə vətəndaşını miqrasiya üzündən itirən Ermənistan yalnız Rusiyadan gələn maliyyə və diasporun hesabına yaşayır. Hesabatda xüsusi vurğulanır ki, tək 1991-ci ildə Ermənistanı birdəfəlik olaraq 800 mindən 1 milyona yaxın insan tərk edib. Sonrakı üç il ərzində Qarabağda gedən aktiv hərbi əməliyyatlar zamanı yaşanan iqtisadi çətinliklər üzündən Ermənistanı daha 500 minə yaxın insan tərk edib. Hesabatda xatırladılır ki, o zaman Ermənistandan azərbaycanlılar da qovuldu. Ardınca digər xalqların da nümayəndələri - ruslar, yəhudilər ölkəni tərk edib getdilər. Nəticədə ölkə əhalisinin 96 faizi ermənilərdən ibarət oldu. Beləliklə, bu gün Ermənistanı dünyanın ən monomillətçi ölkələrindən biri adlandırmaq olar. Kütləvi miqrasiya isə Ermənistanın iqtisadi problemlərini daha da artırmış oldu. Sözsüz ki, buna Dağlıq Qarabağ münaqişəsi, işğalçılıq siyasəti nəticəsində Azərbaycan və Türkiyənin tətbiq etdiyi sərhədlərin blokadası da ciddi təsir etdi.

Hesabatda qeyd edilir ki, bu gün artıq defakto Ermənistan Rusiya kreditlərindən, eləcə də xaricdə fəaliyyət göstərən erməni diasporundan asılı vəziyyətə düşən ölkəyə çevrilib. Almaniyanın Miqrasiya və qaçqınlar Komitəsi bəyan edir ki, yeni erməni hakimiyyəti, "inqilabçı lider" Nikol Paşinyanın komandası Ermənistanın başı üzərində "Domokl qılıncı" kimi asılan bir çox problemdən - yoxsulluq, korrupsiya və oliqarxiyanın öhdəsindən gəlməlidir. Bununla belə, ölkəni inkişafdan saxlayan başlıca problem kimi Dağlıq Qarabağ münaqişəsinin həllə də həll edilməməsi, Azərbaycan torpaqlarını işğal altında saxlaması göstərilir. Hesabatda xüsusi vurğulanır ki, Ermənistan öz ata-baba torpaqlarından azərbaycanlıları qovmasına görə günahkardır. Bundan əlavə, etnik təmizləmə, işğal olunan torpaqlardan insanların qovulmasının əsas günahkarıdır.

Göründüyü kimi, müstəqil bir qurum Ermənistandakı vəziyyətin acınacaqlı olduğunu qeyd edir. Ermənistandakı miqrasiya ilə bağlı vəziyyətin bu hala düşməsinin başlıca səbəbi nə ilə bağlıdır?

Ekspert Zamin Axundov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Ermənistandan mühacirət edənlərin sayının artması danılmaz faktdır: "Göründüyü kimi, bu acınacaqlı vəziyyətlə bağlı xarici təşkilatlar da həyəcan təbili çalırlar. Hətta Ermənistanın daxilində olan təşkilatlar da bunu təsdiqləyirlər. Bu vəziyyətə, ilk növbədə, iqtisadi-sosial problemlər təsir edir: işsizlik, əməkhaqqının azlığı, ixtisas üzrə iş tapmaq və bizneslə məşğul olmağın mümkün olmaması. Ermənistanın daxilində keçirilən rəy sorğularının nəticəsinə görə, respondentlərin dörddə biri miqrasiyanın artmasına, həmçinin, ölkədə korrupsiya, məhkəmə sistemi, ədalətsizlik səbəbindən yaranmış "qeyri-məqbul mənəvi atmosferin" təsir göstərdiyini qeyd edib. Ölkədə ciddi siyasi, sosial gərginliklər, iqtisadi böhranlar, işğalçı siyasət nəticəsində yaranan hərbi şərait əhalinin öz dövlətində yaşaması üçün problem yaradır. Bu səbəbdən Ermənistanda əhalinin sayının azalması müşahidə edilir. Ümumiyyətlə, SSRİ dağıldıqdan sonra bu ölkədən köç güclənib. Bu təkcə keçmiş ittifaqın daxilində baş verən hadisələrlə bağlı deyildi. Son zamanlar Ermənistanda davam edən acınacaqlı sosial-iqtisadi vəziyyət əhalinin davamlı olaraq xarici ölkələrə miqrasiyasına şərait yaratmaqdadır.

BMT-nin Əhali Fondunun Ermənistandakı icraçı nümayəndəsi bildirib ki, Lori vilayəti üzrə ilk dəfə ölüm halları doğum hallarını 90 hadisə üstələyib. Bunun bir səbəbi gənc kişilərin ailə qurmaq istəməməsidir. Demoqrafik balansın yaranması üçün 60 min kişi çatmır. Ermənistanda əhalinin 46,5 faizini kişilər, 53,5 faizini isə qadınlar təşkil edir. Bunun başlıca səbəbi isə emiqrasiya sayılır.

Ermənistanın Əmək və Sosial Məsələlər Nazirliyinin Demoqrafiya bölməsinin rəisi Artak Markosyanın sözlərinə görə, reproduktiv insanların ölkəni tərk etməsinin ağır izləri Ermənistanda qalıb. O bildirib ki, mühacirət və demoqrafik strategiyanın olmaması 27 ildə acınacaqlı vəziyyət yaradıb. Ermənistan Statistika Komitəsinin 2019-cu ilin yanvar ayına olan məlumatına görə, ölkə əhalisinin sayı 2 milyon 965 min nəfər olub. Bu, 2017-ci illə müqayisədə 7 600 nəfər azdır. 2018-ci ildə ölkə üzrə 36 502 uşaq dünyaya gəlib, bu rəqəm 2017-ci ildə 37 700, 2016-cı ildə isə 40 592 nəfər olub. Bütün bu rəqəmlər göstərir ki, Ermənistan indiki siyasi kursunu davam etdirəcəyi təqdirdə onun vəziyyəti daha da acınacaqlı hal alacaq".

*Məhəmmədəli QƏRİBLİ*

**Ermənistanda faşizmə bəslənən rəğbətin Azərbaycan tərəfindən faş edilməsindən sonra dünyanın, xüsusən də bu bəladan daha çox əziyyət çəkən İsrailin, Rusiyanın diqqəti tədricən sözügedən problemə yönəlməkdədir. Belə vəziyyətdə Ermənistanın özünə bəraət cəhdləri isə düşmən ölkəni daha gülünc vəziyyətə salır.**

# İrəvanda iki faşistin heykəlinə görə Ermənistanın başı daha böyük dərdlərə girir

Fakt isə bundan ibarətdir ki, Azərbaycan İrəvanın faşizm sevgisini artıq dünya miqyasında hədəf halına gətirir.

Ermənistanda bunlar fonunda faşizmə rəğbətin davam etməsi düşmən ölkəni daha çətin duruma salır. Xatırladaq ki, Ermənistanın mərkəzində və digər bölgələrində faşist Almaniyasının SS birləşmələrinin generalları olan Njde ləqəbli Qaregin Ter-Arutyunyan və Dro ləqəbli Drasmat Kanoyanın heykəlləri qoyulub. Halbuki, bu "qəhrəman"ların alman nasistləri ilə sıx əlaqələri haqqında danılmaz faktlar xarici ölkələrin arxivlərində, həmçinin Rusiyanın özündə də kifayət qədərdir. Ermənistan hakimiyyətinin bu gün də irqçi neonasist ideologiyanı davam etdirməsi məsələsi cari ilin oktyabrında Türkmənistanın paytaxtı Aşqabad şəhərində MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən bütün dünyanın diqqətinə çatdırıldı.

Bundan sonra maraq doğuran məqamlardan biri Rusiyanın Armavir Şəhər Dumasının deputatı Aleksey Vinoqradovun erməni kilsəsinin ərazisinə daxil olaraq Qareqin Njdenin xatirə lövhəsini qara boya ilə rəngləməsi oldu. Vinoqradov törətdiyi hadisəni şəhər əhalisinin faşizmin tərəfdarı olan Njdenin xatirə lövhəsinin İkinci Dünya müharibəsi qəhrəmanlarının xatirə lövhələrinin yanında yerləşməsinin əleyhinə olması ilə izah edib. Ondan öncə isə Rusiya Dövlət Dumasının deputatı Leonid Kalaşnikov bildirib ki, xatirə lövhəsinin qoyulması böyük səhvdir. Bununla bağlı baş verən digər hadisə isə Ermənistanda səfərdə olan rus jurnalistlərin məsələyə münasibəti oldu. Onlardan biri olan jurnalist Stanislav Smaqin baş nazir Nikol Paşinyana bu xüsusda sual ünvanladı. Jurnalist Njdenin, ermənilər üçün qəhrəman olsa da, ruslar üçün əks sima olduğunu bildirib və erməni-rus münasibətlərində arzuolunmaz şəxs kimi dəyərləndirib. Daha sonra jurnalist qeyd edib ki, bu məsələ ətrafında dəqiq fikir formalaşdırmaq üçün buraya gəlib. Jurnalist "Njdenin həyat və fəaliyyətinin ziddiyətli məqamlarının araşdırılması üçün erməni və rus həmkarlardan ibarət komitənin təşkil edilməsi məqsədəuyğun hesab edilirmi" deyə Paşinyana sual ünvanlayıb. Paşinyanın cavabı və yenidən Njdeni qəhrəman kimi təqdim etmək cəhdi isə təkcə Rusiyada yox, elə Ermənistanda da bəzi məqamlar baxımından mənfi qarşılanır. Erməni hərbi tarixçi, hüquqşünas Mher Akobyan bu xüsusda bildirir:"Ermənistan baş naziri Njdenin şəxsiyyətinin qiymətləndirilməsi haqqında jurnalistin sualına cavab verərkən, həmçinin Ermənistanda və Rusiyada Njdenin şəxsiyyətinin müxtəlif qavrayışlarına toxunarkən əsas vurğunu o şeyin üzərinə qoydu ki, Njde qəhrəmandır və ermənilərin varlığı üçün mübarizə aparıb. Paşinyan, Njde nasist liderləri ilə "danışsa" belə, sovet liderləri və xüsusilə də Molotov kimi digər şəxslərlə də "söhbətləri" olduğunu bildirib. Qoy mənim bu ədəbsizliyim bağışlansın, lakin möhtərəm baş nazirə deməliyəm ki, bu, məsələnin yalnız bir tərəfidir və bu kimi həssas suala bu cür yüksək tribunadan cavab verərkən hərtərəfli yanaşma nümayiş etdirmək lazım idi. Paşinyan bunu edə bilmədi. Yeri gəlmişkən, bu cür vacib suallara erməni dilində cavab vermək lazımdır, çünki hər halda rus dili bizim baş nazirimizin parlaq tərəfi deyil, o çox vaxt hətta sözləri seçməkdə və ya sözləri rus dilində düzgün tələffüz etməkdə çətinlik çəkir".

Digər erməni ekspert Vahe Haikuni isə bildirir ki, Rusiyada müxtəlif qüvvələrin Njde ilə bağlı gündəm formalaşdırılmasına nail ola bilməsi Ermənistanda narahatlıq yaradıb: "Buna görə də ermənilər Paşinyandan siyasi yetkinlik və məsələnin ortaya çıxması üzrə qeyri-dəqiq səbəbləri elə yuvasındaca boğmaq qabiliyyətini nümayiş etdirməsini gözləyirdi. Bəs Paşinyan nə etdi? Paşinyan rus və erməni tarixinə dair biabırçı bir savadsızlıq nümayiş etdirdi. Bu suala cavab vermək üçün kifayət qədər məlumat mənbəyi və zənginliyi mövcud idi. Paşinyan artıq 1989-cu ildə Rusiyanın qanunverici orqanının məlum Molotov-Ribbentrop aktına siyasi və hüquqi qiymət verməsini unudaraq, Molotovun 3-cü Reyxlə təmaslarına toxundu. Faktiki olaraq, Paşinyan bu kimi incə siyasi məsələlərin damarını tuta bilmir, bunun sifarişçilərini hiss etmir və zamanında fürsətdən istifadə edərək əqrəbləri əsl düşmənlərin üzərinə çevirməyi bacarmır. Paşinyan doğrudan da bu məsələ ilə bağlı narahatdırsa, o halda daha incə diplomatik manevrlər tətbiq etməlidir. Əks halda o, erməni-rus ittifaqını dağıtmaq niyyətində olanların dəyirmanına su tökmüş olur".



Ermənistanı narahat edən digər məsələ isə Azərbaycandan sonra Türkiyənin də bu məsələyə diqqəat yetirəcəyi və onu Rusiya qarşısında qaldıracağıdır. Türkiyədə fəaliyyət göstərən Avrasiya Araşdırmalar Mərkəzinin sədri Alev Kılıç da bunu vacib sayır və xatırladır ki, nasistləri qəhrəmanlaşdırmaq Ermənistanın dövlət siyasətidir. Njdenin türklərə qarşı döyüşməsinin əsasında milli, dini və irqi zəmində qisasçılıq olduğunu diqqətə çatdıran səfir vurğulayıb ki, bütün bu cinayətləri əks etdirən istintaq materialları və məhkəmə qərarları mövcuddur: "Belə bir cinayətkara Ermənistanda heykəl qoymaq beynəlxalq prinsiplərə təhqir və təhdiddir. Erməni-nasist əməkdaşlığına dair üzə çıxarılan hər bir fakt beynəlxalq ictimaiyyət üçün çəlbedicidir. Çünki nasist və terrorçuların qəhrəmanlaşdırılması bütün dünyada sülh və sabitlik üçün təhlükə mənbəyi kimi dəyərləndirilir". İsrailin ingilisdilli "The Jerusalem Post" qəzeti də xatırladır ki, prezident İlham Əliyev Simon Vizental Mərkəzinin həmtəsisçisi və sədr müavini, yəhudi din xadimi Rabbi Abraham Kuperlə görüşündə bu məsələyə toxunaraq dünyadakı yəhudi icmalarından dəstək istəyib:"İlham Əliyevin bu bəyanatı bir daha yəhudi xalqına hörmət və ehtiramı nümayiş etdirdi.

Azərbaycan prezidenti postsovet məkanında və Şərqi Avropa ölkələri arasında nasistlərin əlaltısı və Ermənistanda altı metrlik heykəli qoyulan Njdedən açıq şəkildə danışan yeganə liderdir. Biz xalqların öz tarixini, tarixi keçmişini suveren şəkildə yazmaq və öz milli qəhrəmanlarının xatirəsini əbədiləşdirmək hüququna qarışmırıq. Lakin dəhşətli Holokost cinayətlərində əli olan şəxslərin milli qəhrəmana çevrilməsinə də susmamalıyıq. İnsanlığa qarşı cinayətdə ittiham olunmuş faşist canisini özünün milli qəhrəmanı elan etmək olarmı? Erməni faşisti və antisemit general Qaregin Njdenin xatirəsinin əbədiləşdirilməsi rüsvayçılıq və Holokost qurbanlarının xatirəsinin təhqir olunmasıdır. İrəvanda erməni faşisti və antisemit Qaregin Njdeyə abidə ucaldılması bir daha təsdiq edir ki, müasir Ermənistanda həm İsrail xalqının nümayəndələrini, həm də sovet əsgərlərini məhv edən bu faşistlərə miqyaslı pərəstiş yaradılıb".

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Paşinyanın Qarabağ siyasətindən Ermənistanda ictimai narazılıq sıçrayışla artır

**Ermənistanın mövcud hakimiyyətinin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yanaşması hələ də sülh ümidləri üçün hansısa əsas vermir. Çünki Nikol Paşinyan və komandasında yer alanlar məsələyə münasibətdə hələ də sərsəm və beynəlxalq hüquqa zidd bir yanaşma sərgiləməkdə davam edir.**

Xatırladaq ki, belə yanaşma indi Ermənistanın özündə də ciddi tənqid hədəfinə çevrilib. Hətta bu günlərdə Ermənistanın sabiq prezidenti Serj Sarkisyan da Avropa Demokratik Partiyasının qurultayı zamanı bəyan edib ki, münaqişənin indiki danışıqlar mərhələsi narahatlıqlar doğurur: "ATƏT-in Minsk Qrupu həmsədrlərinin vasitəçilik səylərinin beynəlxalq ictimaiyyətin qeyd-şərtsiz dəstəyini alması çox vacibdir".

Erməni ekspert Armine Adibekyanın sözlərinə görə, Sarksiyanın narahatlığı daha çox Ermənistanın indiki hakimiyyətinin fəaliyyətindən doğur. O bildirir ki, məhz bu fəaliyyət nəticəsində hazırda vəziyyət dəyişib, ancaq hansı istiqamətə dəyişdiyi qeyri-müəyyəndir: "Nə azərbaycanlılar, nə də ermənilər bu fəaliyyətdən nə baş verdiyini anlayır və mənə elə gəlir ki, Ermənistan hakimiyyəti bu prosesin hara getdiyini yaxşı başa düşmür. Sarkisyan hazırkı hakimiyyətə danışıqlar prosesinin aparılmalı olduğunu göstərib. Heç bir halda səhv addımlarla hərbi əməliyyatların başlamasına sürükləməməyi tövsiyə etməyə çalışıb. Amma Paşinyanın fəaliyyəti hərbi əməliyyatların yenidən başlanma ehtimalını yüksəldir".

Adibekyan bildirib ki, bunun əsas səbəblərindən biri hazırda erməni hakimiyyətinin Qarabağ məsələsindəki mövqeyinin nədən ibarət olduğunun aydın olmaması ilə bağlıdır:

"Məndə elə təəssürat var ki, Ermənistanın birinci şəxsi bu mövzunu çiynindən atmaq və onu xalqın, Qarabağ rejiminin çiyinlərinə qoymaq istəyir. Paşinyan hakimiyyətdə olduğu müddət ərzində Qarabağla bağlı 3 tezis irəli sürüb. İlk növbədə bəyan etdi ki, Qarabağ danışıqlar tərəfi olmalıdır, daha sonra "Qarabağ Ermənistandır və son", bundan sonra hər 3 tərəf - Qarabağ, Ermənistan və Azərbaycan xalqları üçün məqbul olacaq bir həll yolunun tapılması vacibliyini bildirib. Bu 3 tezis doğrudanmı bir-birinə ziddiyyət təşkil etmir? Yalnız Paşinyanın dəstəklədiyi Qarabağın danışıqlar masasına qayıtması fikri ilə o, münaqişənin həlli yükündən yaxasını kənara çəkmək və Azərbaycanla Qarabağ rejiminin öz aralarında problemlərini həll etməsinə nail olmaq istəyir. Amma bu mümkün deyil və beynəlxalq vasitəçilər də bunu dəstəkləmir". "Qarabağ Ermənistandır və son" məsələsinə gəldikdə, ekspert vurğulayır ki, bu, əvvəllər "daxili mətbəx"də istifadə edilmiş bir termindir: "Amma daxildə deyilən xaricdə əksini tapmalıdır. Paşinyan xaricdə qüvvədə olmayan bir fikri irəli sürüb. Bu fikir danışıqlar məzmununa da ziddir. Azərbaycan cəmiyyətində bu tezisin dəstəklənməsinə necə nail olmaq niyyətində olduğu məlum deyil. Hər 3 tərəfi məmnun edəcək bir həll variantı mövcud deyil. Ona görə də yaxşı olardı ki, Paşinyan hakimiyyəti əsassız tezislərindən imtina etsin. Bunun əksi savaşdır və Paşinyan həmin savaş üçün Azərbaycana lazımi arqumentləri verir. Amma bu savaşda bizi nələrin gözlədiyini heç Paşinyan özü də bilmir. Bu səbəbdən onun aprel döyüşlərini xatırlaması yaxşı olardı". Ermənistanın keçmiş milli təhlükəsizlik naziri David Şahnazaryan da etiraf edir ki, hakimiyyət ziddiyyətli açıqlamaları ilə Qarabağla bağlı danışıqlar prosesini dalana dirəyib. O bildirib ki, bu gün beynəlxalq ictimaiyyət Azərbaycanla eyni, Ermənistanla isə fərqli mövqedən çıxış edir. Keçmiş nazir söyləyib ki, mövcud vəziyyət Ermənistan üçün təhdiddir. Şahnazaryan məhz bu fonda danışıqların dalana dirənməsi ilə əlaqədar Azərbaycanın hərbi əməliyyatlar keçirəcəyindən də narahatlığını gizlətməyib: "Azərbaycan gələcək hərbi əməliyyatlarını əsaslandırması üçün artıq ciddi arqumentlər əldə edib".

Bu yanaşmalardan aydın görünür ki, Qarabağ məsələsinin hərbi həll ehtimalı, əslində Ermənistanda ciddi qorxu ilə qarşılanır. Hadisələr bu səpkidə inkişaf edəcəyi təqdirdə əsas günahkar qismində Ermənistan hakimiyyəti göstərilir. Çünki məhz onun absurd mövqeyi üzündən danışıqlar prosesi dalana dirənmiş vəziyyətə düşüb. Ermənistanda isə belə durumda, ən azından, politoloqlar və siyasi şərhçilər səviyyəsində hər kəs bilir ki, Azərbaycanın hərbi potensialı ilə Ermənistanın hərbi potensialı müqayisə belə edilə bilməz. Azərbaycan ordusu indi ən müasir silahlarla təchiz edilib. Bu durumda sülh danışıqları sona qədər getməsə, Azərbaycan ordusu Ermənistana lazım olan cavabı verəcək. Ermənistanın isə ordu və digər sahələrdə ciddi problemləri getdikcə daha dəhşətli vəziyyət almağa başlayır. Məhz belə vəziyyətdə mümkün savaş Ermənistanı çökdürməkdən başqa heç nəyə xidmət etməyəcək. Bunu rusiyalı hərbi ekspert Aleksandr Xramçixin də xüsusi olaraq vurğulayır. Onun sözlərinə görə, Azərbaycan savaşı istsina etmədiyindən, bu istiqamətdə intensiv hazırlıqlar görüb: "Azərbaycan üçün burada bir məqsəd var - Qarabağı geri qaytarmaq. Bu fonda Azərbaycan daha çox silah alır və daha da güclənir. Təbiidir ki, danışıqlar nəticə verməsə, bu silah Ermənistan ordusuna qarşı tətbiq ediləcək. Bu regionda Ermənistan Azərbaycanın düşmənidir və səbəb də işğal faktorudur".

Digər ekspertlər də bildirir ki, danışıqların dalana dirənməsi fonunda Azərbaycan yenidən hərbi əməliyyatlara başlayarsa, aprel döyüşlərində və Günnüt əməliyyatlarında olduğu kimi, Ermənistan növbəti dəfə Silahlı Qüvvələrimizin sərt zərbəsinə tuş gələcək. Digər tərəfdən düşmən onu da unutmur ki, döyüş hazırlığına görə Silahlı Qüvvələrimiz dünyanın 50 ən aparıcı ordusu sırasında qərarlaşıb. Ordumuzun döyüş hazırlığı səviyyəsinin daha da yüksəldilməsi, şəxsi heyətin müasir silah və texnika ilə təmini istiqamətində də indinin özündə zəruri addımlar atılır. Bu fonda davamlı olaraq güclənən və regionun ən qüdrətli ordusuna çevrilən Azərbaycan ordusu düşməndə böyük vahimə yaradır. Bu isə o deməkdir ki, ordumuz istənilən an işğal altında olan torpaqlarımızı azad etməyə, düşmənin bütün strateji hədəflərini məhv etməyə qadirdir. Qeyd edilənlər fonunda son illər ərzində Azərbaycan ordusunda keçirilən irimiqyaslı təlimlər getdikcə daha çox diqqət çəkir. Belə təlimlər ordunun döyüş hazırlığı səviyyəsinin yoxlanması, döyüş texnikasının, müasir silahların tətbiqi imkanlarının öyrənilməsi baxımından vacib əhəmiyyət kəsb edir. Təlimlərə böyük sayda şəxsi heyət, aviasiya, hava hücumundan müdafiə sistemləri, raket və artilleriya qoşunları, ən müasir standartlara uyğun zirehli texnikaların cəlb edilməsi isə onun effektlivliyini daha da artırır. Eləcə də belə təlimlər ordumuzun müasir döyüşün ən mürəkkəb tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirməyə hazır olduğunu, onun döyüş qabiliyyətinin və peşəkarlığının, yeni silah sistemlərindən və döyüş texnikasından istifadə etmək bacarığının əhəmiyyətli dərəcədə artdığını göstərir. Elə düşməni narahat edən başlıca məqamlardan biri də məhz budur. İndilikdə ordu quruculuğunun daha müasir metodlarla həyata keçirilməsi, döyüş hazırlığının ən müasir tələblərə cavab verə biləcək səviyyəyə çatdırılması bu sahədə uğurları daha da artırır. Bütün bunlar isə, Ermənistanla aparılan danışıqlar ölkəmiz üçün istənilən şərtlərlə yekunlaşmayacağı təqdirdə, işğal altında olan ərazilərin azad edilməsi üçün Azərbaycanın güc yolu ilə istəyinə çatmasına lazımi imkanlar yaradır. Bunu, Paşinyan hakimiyyətindən frəqli olaraq, Ermənistanda aydın şəkildə sezənlərin sayı az deyil. Elə buna görə də Paşinyanın Qarabağ siyasəti Ermənistanın özündə narazılıqla qarşılanır.

Digər tərəfdən, baş verənlərdə geosiyasi faktor məsələsinə də diqqət yetirilməlidir. Faktdır ki, yanlış xarici isyasət nəticəsində Ermənistanın həm Rusiyanın, həm də Qərbin dəsətəyindən məhrum olması regionda onun mövqelərinin daha zəif hala gəlməsinə səbəb olub. Məhz bu da Qarabağ münaqişəsinin həllini tezləşdirə biləcək faktorlardan sayılır. Çünki Ermənistanın bu münaqişənin həllini indiyə qədər uzatması yalnız xaricdən aldığı dəstək sayəsində mümkün olub. Amma artıq bu dəstək tədricən aradan qalxır və belə şəraitdə Azərbaycan üçün Qarabağ münaqişəsinin həlli daha asan hala gəlir. Ümumiyyətlə, hesab edilir ki, yaxın tezlikdə Moskva, eləcə də Qərb ölkələri İrəvanın Qarabağ məsələsində müəyyən güzəştlər etməsi üçün Ermənistana təzyiqlərini artıra bilər. Bu həm də Azərbaycan diplomatiyasının uğurlu gedişlərinin nəticəsi kimi qəbul olunur. Çünki Bakı Qafqazı beynəlxalq miqyasda əməkdaşlığın əsas ünvanlarından biri qismində görmək istəyir. Bunun əsas şərtlərdən biri isə Qarabağ münaqişəsinin həllindən keçir.

Digər tərəfdən, yaranmış vəziyyətdə danışıqlar nəticə verməsə, ABŞ və Rusiya kimi ölkələr Azərbaycanın ərazi bütövlüyünü təmin etməsi üçün hərbi əmliyyatlara başlamasına hansısa maneə yaratmayacaq. Erməni politoloq Qrant Postancan da Azərbaycanın belə vəziyyətdən istifadə edə biləcəyindən narahatlıq ifadə edib: "Azərbaycan Qarabağ məsələsini hərb yolu ilə həll edəcəyini gizlətmir. Bunun qarşısını alacaq qüvvə də yoxdur". Beləliklə, yaranmış vəziyyət Qarabağ məsələsində yaxın tezlikdə müəyyən yeniliklərin olacağını istsina etmir. Azərbaycan ya hərb, ya da sülh yolu ilə məsələnin həllində artıq irəliləyişlərin olmasında israrlıdır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Əli İnsanovun partiya quruculuğu prosesi saxtakarlıqla başladı...

**Sabiq səhiyyə naziri Əli İnsanovun yeni partiya yaratmaq istəyi ilk cəhddən uğursuz alınıb. Qeyd edək ki, bu məlumatı ilk olaraq Ə.İnsanov özünün sosial şəbəkədəki hesabında paylaşdı və partiyanın adını, eləcə də təşkilat komitəsində təmsil olunan şəxslərin kimliyini elan etdi.**



## Samir Adıgözəlli: "Məlum oldu ki, Əli İnsanovun adını "Haqq və Ədalət" qoyduğu partiyasının təməli fırıldaqla yoğruldu"

Hər iki məsələ ilə bağlı sosial şəbəkələrdə ciddi reaksiyaların verildiyi müşahidə olundu. Əsasən də bildirildi ki, təşkilat komitəsində elə bir ciddi fiqur adına rast gəlinmir. Həmçinin, "Haqq və Ədalət" adının orada təmsil olunanların həyat tərzi ilə heç bir əlaqəsinin olmadığına dair qeydlərə çox rast gəlindi.

Artıq Ə.İnsanovun özünün təşkilat komitəsinin üzvü kimi elan etdiyi şəxslərdən bəziləri ilk andan haqqın və ədalətin pozulduğuna dair faktları açıqladılar. Qeyd edək ki, ilkin olaraq elan olunan 15 nəfərin içində Qalibə Budaqova adlı şəxsin də adı vardı. Həmin xanım Ə.İnsanov tərəfindən cəmiyyətə belə təqdim edilirdi - Bakı Dövlət Universitetinin sabiq əməkdaşı, Bakı şəhəri 23 saylı orta məktəbin sabiq direktoru, Azərbaycan Respublikası şəhid Milli Qəhrəmanı Tahir Həsənovun anası, Azərbaycanın Milli Qəhrəman Ailələrinin Sosial Müdafiəsi İctimai Birliyinin sədri. Elə həmin gün Q.Budaqovanın məsələyə dair açıqlamasında məlum oldu ki, onun cəmiyyətə təqdimatı düz həyata keçirilib, amma partiyaya üzv olmasında yanlışlıq var. Bakı Dövlət Universitetinin sabiq əməkdaşı, Bakı şəhəri 23 saylı orta məktəbin sabiq direktoru Q.Budaqova bildirib ki, onun adını yeni yaradılan "Haqq və Ədalət" Partiyasının təşkilat komitəsinin üzvü kimi hallandırıblar. Qalibə xanım bununla bağlı bildirib:

"Mən Q.Budaqova heç bir partiyanın və heç bir partiyanın təşkilat komitəsinin üzvü deyiləm. Mən uzun müddətdir ki, xəstəyəm və müalicə altında olduğum üçün heç evdən belə çıxa bilmirəm! Xahiş edirəm mənim adımı heç bir partiya üzvlüyü ilə hallandırmasınlar!".

Ə.İnsanovun partiya yaradıcılığındakı ilk debütündə ortaya çıxan bu biabırçı fakt nəyin əlaməti sayıla bilər?

İctimai-Siyasi Proseslər Beynəlxalq Araşdırmalar Mərkəzinin rəhbəri Samir Adıgözəlli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Ə.İnsanovun hansı haqqın və ədalətin yanında olacağına indidən yaxşı işıq salındı: "Əvvəla deyim ki, mən həmin siyahıda bir nəfər də olsun tanınmış siyasi xadim adına rast gəlmədim. Ə.İnsanovun partiyasının "qaymağı" bunlardısa, vay arxada gələnlərin halına. Hər hansı partiyanın yaranması üçün münbit şərait olmalıdır. Bundan əlavə, yeni partiyanın məqsəd və məramı və üzərində duracağı ideologiyası olmalıdır. Ə.İnsanov indiyə qədər yalnız qisasdan danışıb. Onun bu yaşından sonra hansısa yeni bir ideoloji cərəyanı özünə fəaliyyət proqramı kimi seçəcəyi inandırıcı görünə bilməz. Bundan əlavə, Ə.İnsanov daim belə bir təbliğat aparırdı ki, onun ətrafında əslən Qərbi Azərbaycandan olan insanlar kompakt birləşəcəklər. Biz bunun da şahidi olmadıq. Ən başlıcası isə elə ilk təqdimatdan saxtakarlığa yol verdiklərini özləri ifşa etdilər. Məsələn, tanınmış bir şəhid anasının adını da təşkilat komitəsinin üzvü kimi qeyd ediblər. Burada hansısa texniki səhvdən söhbət gedə bilməz. Belə səhv olsaydı, xanımın adını və ya titullarını səhv qeyd edərdilər. Bütün göstəriciləri tamamilə düzgün təqdim olunan xanım çıxıb hansısa partiyaya üzv olmadığını bildirdi və adının bu cür məsələdə hallanmasına kəskin etirazını söylədi. Qaydalara görə, Ə.İnsanov təşkilat komitəsinə qoşulan şəxslərin prosesdə iştirakını onların imzası əsasında müəyyən etməlidir. İnanmıram ki, şəhid anası imza atıb, sonra bundan imtina etsin. Belə olsaydı, Ə.İnsanovun ətrafındakılar bunu nümayiş etdirərdilər. Görünən budur ki, Qalibə xanımın göstəriciləri partiyanın "vitrin" təqdimatı üçün uğurlu və cəzbedici olub. Kiminsə xəbəri olmadan adını partiyanın funksioneri kimi qeyd etmək saxtakarlıqdan başqa nəsə deyil. Buna başqa ad necə verə bilərik? Məlum oldu ki, Ə.İnsanovun adını "Haqq və Ədalət" qoyduğu partiyasının təməli fırıldaqla yoğruldu. Bu biabırçılıq bir daha sübut etdi ki, Ə.İnsanovu cəmiyyətin baxışları deyil, şəxsi ambisiyaları maraqlandırır. Bir az keçəndən sonra biz həmin qurumda daha yeni biabırçılıqların baş verəcəyinin şahidi olacağıq. Oradakı adamların çoxu vaxtilə vəzifədə işləmiş şəxslərdir. İşdən çıxdıqları üçün narazı qalıblar. Yaxşı bir şirin vəd eşidən kimi Ə.İnsanovu 5 qəpiyə satacaqlar".

*Məhəmmədəli QƏRİBLİ*

# Müsavat Partiyasının yeni qurultay zərurəti gündəmə taxıldı...

**Müsavat Partiyasında təbəddülatlar səngimək bilmir. Oktyabr ayında Arif Hacılının yenidən partiyanın başqanı olması sözügedən siyasi təşkilatda intriqaları yenidən körükləyib. Görünən odur ki, bir çoxu A.Hacılının yenidən başqan seçilməsinə mənfi yanaşır.**




## Ramil Hüseynov: "Partiyada növbədənkənar qurultayın keçirilməsinə ciddi zərurət var"

Digər tərəfdən də mühacir biznesi ilə bağlı aparılan həbslər böyük rezonans doğurub. Yayılan məlumatlarda ölkədə bir sıra şəxslərin, ictimai fiqurların, Müsavat Partiyası üzvlərinin adlarının bu qalmaqalda hallanması gündəmi zəbt edib. Mühacir alveri ilə məşğul olduğu bildirilən bu şəbəkə Azərbaycandan vətəndaşları aldadaraq pul müqabilində onlara saxta sənədlər, arayışlar verib, habelə onların Almaniyaya səfərini təşkil edib, orada yerləşdirib və s. xidmətlər göstərib. Uzun illər ərzində minlərlə insan bu şəbəkənin xidmətindən istifadə edib, onların əksəriyyəti külli miqdarda vəsait xərcləməsinə baxmayaraq, oturum ala bilməyib və ölkədən deport edilib.

Müsavatın mühacir biznesi şəbəkəsinin ifşası partiya daxilində də ciddi qarşıdurmaya səbəb olub. Belə ki, vaxtilə partiya rəhbərliyinin qanunsuz fəaliyyətinə qarşı çıxan və bu səbəbdən Arif Hacılının qəzəbinə tuş gələnlər hazırda onun istefasını tələb edirlər.

Müsavat başqanının sabiq müavini Yadigar Sadıqlı hesab edir ki, Arif Hacılı və onun ətrafındakı şəxslər birbaşa mühacir biznesinin əsas təşkilatçılarıdır: "Düşünürəm ki, partiyanın rəhbərliyi, Arif Hacılı günahlarını etiraf etməli, məsuliyyəti nəzərə alıb istefa verməlidir".

Maraqlıdır ki, bütün baş verənlərə "soyuqqanlı siyasətçi" imici daşıyan İsa Qəmbər açıq münasibət bildirmir. Prinsipcə, "hiyləgər gedişləri ilə tanınan" sabiq başqana belə qalmaqal sərf edir.

Bu dəfə "mühacir biznes"nin miqyası o dərəcədə böyükdür ki, bu saxtakarlar üçün "hakimiyyətin məqsədyönlü hücumundan" danışmaqla vəziyyəti müsbətə doğru dəyişmək imkansız görünür. Saxta arayış məsələsini gündəmə gətirən və onu qabardan hakimiyyət deyil, demokratik Avropanın önəmli ölkələrindən olan Almaniyanın hüquq-mühafizə orqanları və başqan Hacılının sabiq və hazırkı silahdaşlarıdır.

Bütün bu deyilənlərin fonunda, Müsavat Partiyasının növbədənkənar qurultay keçirməsinə nə dərəcədə ehtiyac var?

Məsələyə münasibət bildirən VİP-in sədr müavini Ramil Hüseynovun sözlərinə görə, yaşanan çaxnaşmaları nəzərə alsaq, Müsavat Partiyasının növbədənkənar qurultay keçirməsinə ciddi zərurət var:

*"Reallıq ondan ibarətdir ki, təşkilatda narazılıqlar səngimək bilmir"*

"Müsavat Partiyası ilə bağlı 10 əvvəl demişdim ki, İsa Qəmbərdən sonra partiya dağılacaq. Nəticə ortadadır. 2014-cü ildən başlayaraq partiyanın dağılması göz qabağındadır. Hazırda partiyada A.Hacılının ikinci başqanlıq dönəmidir. Partiyadan bir vaxtlar getməyənlər indi üsyan qaldırırlar. Hazırkı narazılıqlar əvvəlkilərin davamıdır. Hər iki tərəf qarşılıqlı ittihamlarla çıxış edir. Mühacir alveri ilə bağlı ortada çox ciddi faktlar var. Partiya bütün bunlarla bağlı düz-əməlli açıqlama verə bilmir. Reallıq ondan ibarətdir ki, Müsavat Partiyasında narazılıqlar səngimir.

Ona görə də Müsavat Partiyasında növbədənkənar qurultayın keçirilməsinə ciddi zərurət var. Bir məqamı qeyd edim ki, 2005-ci ildə keçirilən qurultayda Əli Əliyev AMİP-in sədri seçildi. Narazı olanlar yeni qurultay tələb etdilər. Nəticədə növbəti qurultay keçirildi və Əli Əliyev yenidən sədr seçildi. Ona görə də Müsavatdakı narazılığı aradan qaldırmaq üçün növbədənkənar qurultaya ehtiyac var. Çünki, qeyd olunduğu kimi, buna zərurət var".

*Vidadi ORDAHALLI*

# Ermənistandakı Rusiya səfirinə hücum - mövzu yenə faşist əlaltısı Njdedir...

**"Siyasi və beynəlxalq kontekstdən bəzilərinin tarixi yenidən yazmağa, onda baş verənləri yenidən hazırlamağa cəhd etdiyini görürük". Bunu Rusiyanın Ermənistandakı səfiri Sergey Kopirkin Rusiya və Ermənistan arasında mübahisəyə səbəb olan Qaregin Njde mövzusunu şərh edərkən bildirib. Onun sözlərinə görə, bu məsələlər çox incədir.**



***Fikrət Sadıqov:** "Bütün bunlar onu göstərir ki, Ermənistan Njde məsələsində geri addım atmaq istəmir"*

Erməni mediası Rusiya səfirinin bu açıqlamasını tənqid edib. Qeyd olunub ki, Kopirkinin açıqlamasından tarixin yenidən dəqiqləşdirilməsinə kimlərin cəhd etdiyi tam anlaşılmır: "Bu çox ehtimal ki, erməni auditoriyası üçün verilən açıqlamadır. Bununla bu odualovu yumşaltmaq istəyirlər. Köçəryanın tərəfdarlarının iddia etdiyi erməni-rus münasibətlərindəki böyük ziddiyyəti şişirtmək istəyirlər".

Erməni mediası iddia edir ki, Rusiya lazım gələndə tarixi yenidən yazır və bu, qəbahət sayılmır, amma Ermənistan bunu edəndə fərqli yozulur: "Bu arada Rusiya özü İkinci Dünya Müharibəsinə səbəb olan Molotov-Ribbentrop Paktını diplomatiyasının nailiyyəti elan etdi. Hansı ki, Yeltsinin dövründə Rusiya bu sazişi dövlət səviyyəsində pisləndi. Yəni Rusiyada, əslində, tarixin yenidən yazılması və paktın əsaslandırılması mövcuddur".

Düşmən ölkənin mediası hesab edir ki, bu, Rusiya səfirinin Ermənistan maraqlarına yönəlik ikinci saymazyana münasibətidir. Birinci dəfə Azərbaycana Rusiyanın silah satmasına münasibət sərgilənərkən özünü göstərdi. Səfir Kopirkin bu məsələyə münasibət bildirərkən faktiki surətdə erməniləri pərt edib və Azərbaycana silah-sursat satışına haqq qazandırıb: "Bu məsələlər, şübhəsiz, çox vacibdir və diqqətə və müzakirələrə layiqdir. Ancaq belə diskussiyalar və şərhlərin arxasında bəzən KTMT-nin əsas fəaliyyəti görünməz olur".

Göründüyü kimi, erməni mediası yenidən Rusiyanın Ermənistandakı səfiri S.Kopirkinin üzərinə hücuma keçib. Bununla, açıq-aşkar, faşist Njde ilə bağlı tutduqları mövqeyi dəyişmək istəmədiklərini göstərirlər.

*"Erməni mediasının Molotov-Ribbentrop Paktını Njde məsələsi ilə müqayisə etməsi primitiv axmaqlıqdır"*

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən keçmiş diplomat, politoloq Fikrət Sadıqovn sözlərinə görə, bütün bunlar onu göstərir ki, Ermənistan Njde məsələsində geri addım atmaq istəmir: "Rusiyanın Ermənistandakı səfiri Sergey Kopirkin belə bir ifadə işlədirsə, deməli, o bununla öz dövlətinin mövqeyini bildirir. Nəzərə almaq lazımdır ki, Moskva faşizmin qəhrəmanlaşdırılmasına qarşı ciddi tədbirlər görür. Faşistlərə xidmət edənlərin qəhrəmanlaşdırılmasına öz narazılığını bildirir. Gələn il İkinci Dünya Müharibəsinin bitməsinin 75 illiyi qeyd olunacaq. O səbəbdən Rusiyanın bu mövqedən çıxış etməsi özlüyündə bir faktdır. Başqa bir tərəfdən, erməni mediasının Molotov-Ribbentrop Paktını Njde məsələsi ilə müqayisə etməsi primitiv axmaqlıqdır. Məsələ ondadır ki, 1939-cü ildə SSRİ özünü müəyyən qədər sığortalamaq üçün Almaniya ilə belə müqavilə imzalayıb. Moskva o vaxt müharibənin başlanmasını yubatmaq məqsədilə bu addımı atdı. Bu o demək deyil ki, sözügedən pakta yeni yanaşma fonunda, Njdeyə də fərqli prizmadan yanaşmaq olar. Təbii ki, bu belə deyil. Ona görə ki, Njdenin fəaliyyəti faşizmə xidmət üzərində qurulub. O üzdən, Njde ilə faşist cəlladları arasında bir fərq yoxdur".

*Vidadi ORDAHALLI*

# ABŞ Suriyada anti-İŞİD əməliyyatları bərpa etdi - arxa görüntülər...

**ABŞ-ın İŞİD-ə qarşı mübarizədə rəhbərlik etdiyi Beynəlxalq Koalisiya Suriya kürdləri ilə birgə İŞİD terrorçularına qarşı birgə hərbi əməliyyatların keçirildiyini elan edib. Belə ki, ABŞ Suriyanın şimalında İŞİD-ə qarşı genişmiqyaslı əməliyyata yenidən başlayıb.**



***Məhəmməd Əsədullazadə:** "Suriyada mövqelərinin zəiflədiyinin fərqində olan ABŞ İŞİD-ə qarşı əməliyyat adı altında..."*

Məlumata əsasən, ABŞ Deyr əz-Zorda kürd silahlıları ilə əməliyyata start verib və əməliyyat zamanı çox sayda İŞİD üzvü öldürülüb. 10-dan çox terrorçunun isə saxlandığı bildirilib.

Onu da qeyd edək ki, ABŞ Silahlı Qüvvələrinin Mərkəzi Komandanlığının "CENTCOM" rəhbəri general Kennet Makkenzi şənbə günü ABŞ qüvvələrinin Suriya Demokratik Qüvvələri ilə birlikdə İŞİD terror qruplaşması ilə mübarizəsini tezliklə bərpa edəcəyini demişdi: "Mənim hazırda Fəratdan şərqə qədər, Deyr əz-Zordan Həsakiyə qədər, şimali-şərqdən Suriyanın şimal-şərqinə qədər olan ərazidə 500-ə yaxın ABŞ əsgərim var. Bu mövqedə qalmaq niyyətindəyik. Suriyadakı tərəfdaşlarımızla birgə Fərat çayı ərazisində İŞİD-ə qarşı əməliyyatları davam etdirmək üçün çalışırıq".

Nəzərə almaq lazımdır ki, ABŞ Prezidenti oktyabrın əvvəlində Amerika qoşunlarının Suriyadan çıxarılmasını elan etdikdən sonra Türkiyə ordusu Suriyanın şimal-şərqində yerləşən kürd qoşunlarına qarşı hücuma başladı. Əməliyyat çərçivəsində Türkiyə qarşısına qoyduğu məqsədə nail oldu. Gözlənilirdi ki, ABŞ bundan sonra Suriyada fəal hərbi əməliyyatlara qoşulmayacaq. Ən başlıcası, ona görə ki, regionda İŞİD-in nəzarətində olan ərazi, demək olar, qalmayıb. Belə olan halda, ABŞ-ın yenidən Suriyada hərbi əməliyyatlara start verməsi maraq doğurur. Maraqlıdır, Suriyada nə baş verir? ABŞ-ın növbəti hərbi əməliyyatlara başlamasında məqsədi nədir?

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadə ABŞ-ın bu addımına bir neçə kontekstdən yanaşdı: "Məsələ ondadır ki, Suriya dünyönü geopolitik bir qarşıdurmadır. Burada iştirak edən ölkələr yeni dünya nizamında öz siyasətlərini qurmağı hədəfləyiblər. Qeyd edim ki, Suriyada İŞİD beynəlxalq terror təşkilatına qarşı aparılan hərbi əməliyyatlar və burada ABŞ-ın fəal iştirakı, demək olar, İŞİD-in orada olan varlığına son qoydu. Məhz ABŞ Prezidenti Donald Tramp İŞİD məğlub edildikdən sonra Suriyadan çıxacaqlarını elan etdi. Türkiyənin Suriyanın şimalında YPG terror təşkilatına qarşı hərbi əməliyyatı və burada ABŞ-ın planlarının üzərindən xətt çəkməsi Vaşinqtonun yenidən bir plan həyata keçirməsinə gətirdi. Ankaranın "Sülh Çeşməsi" adlı hərbi əməliyyatı çərçivəsində ABŞ ordusu böyük bir ərazidən çəkilmişdi. ABŞ qüvvələrini İraqa çəkmişdi. Göründüyü kimi, Suriyada mövqelərinin zəiflədiyinin fərqində olan ABŞ İŞİD-ə qarşı əməliyyat adı altında yenidən orada möhkəmlənmək istəyir. Bu minvalla, Suriyada əsgəri gücünü artırmaqla, yeni oyun qaydaları planlayır. Neft yataqlarının mühafizəsi adı ilə reallaşan bu planda əsasən kürdlərin muxtariyyətini yaratmaq məqsədi dayanır. Hesab edirəm ki, ABŞ Suriyada İŞİD-ə qarşı əməliyyat adı ilə öz qüvvələrini burada yerləşdirərək yenidən Suriyada böyük bir ərazini nəzarətə almaq istəyir. Rusiya və İranın burada təsir mövqeyinin güclənməsi Vaşinqtonu ciddi narahat etməyə başlayıb. Göründüyü kimi, Suriyada sülh və təhlükəsizliyin təmini yaxın perspektivdə görsənmir. Çünki ABŞ yeni oyun qaydaları cızır. Bu da yeni müharibənin alovlanması deməkdir. Görünür, ABŞ Suriyada istədiyini bundan sonra əldə etməyi qərara alıb".

*"Neft yataqlarının mühafizəsi adı ilə reallaşan bu planda əsasən kürdlərin muxtariyyətini yaratmaq məqsədi dayanır"*

*Vidadi ORDAHALLI*

**Dövlət Gömrük Komitəsində "2019-cu ilin 10 ayı ərzində görülən işlər, qarşıda duran vəzifələr" mövzusunda keçirilən mətbuat konfransında DGK sədri Səfər Mehdiyev jurnalistlərin suallarını da cavablandırıb.**

# DGK sədri 2019-cu ilin 10 ayı ərzində görülən işlər, qarşıda duran vəzifələrlə bağlı jurnalistlərin suallarını cavablandırdı



Verilən hər bir suala ətraflı cavab verən sədr, son zamanlar ictimaiyyətdə Gömrük Komitəsinin ləğvi ilə bağlı səslənən fikirlərə də münasibət bildirib. Sədr söyləyib ki, bu məsələ komitənin səlahiyyətində deyil: "Hər hansı bir qurumun rəhbəri, Dövlət Gömrük Komitəsi, eləcə də digər qurumlar hansısa komitəni ləğv edə bilməzlər. Bu bizim səlahiyyətlərimizə daxil deyil. Görünən odur ki, cənab Prezident son islahatlarda məsləhət görməyibsə, komitənin ləğvindən söhbət gedə bilməz".

Daha sonra DGK sədri bu ilin 10 ayında Azərbaycanın idxalının dəyərinin ötən ilin eyni dövrü ilə müqayisədə 24% çox olduğunu dedi: "Amma bu artımın 85%-ni Azərbaycan Dövlət Neft Fondunun (ARDNF) ölkəyə idxal etdiyi qızıl təmin edib. İdxalın real artımı 6-7%-dir. Məsələn, buğda idxalında kəskin artım var. Bu ilin yanvar-oktyabr aylarında buğda idxalına çəkilən xərc ötən ilin eyni dövrü ilə müqayisədə 119 milyon ABŞ dolları, yaxud 68% çox olub".

S.Mehdiyev çıxışı zamanı onu da əlavə etdi ki, 2019-ci ilin dövlət büdcəsi ilə bağlı proqnoz tapşırığına noyabrın 5-də 100% əməl edilib. 10 ay ərzində isə büdcə öhdəliyi 123% yerinə yetirilib: "Bu gedişlə bu il büdcəyə 700 milyon manat əlavə vəsait köçürəcəyik".

Komitə sədri xarici dövlət nömrəsi olan avtomobillərin ölkə ərazisində qalma müddətinə dair qanunvericilikdə hər hansı bir dəyişikliyin olmadığını da bildirdi: "Sadəcə, əvvəllər bunu gömrük əməkdaşları hesablayırdısa, artıq bunu sistem avtomatik olaraq hesablayır. Gömrük Məcəlləsinin 305 saylı qərarının 4.3-cü maddəsində yazılıb ki, qeyri-rezident vətəndaşların Azərbaycana nəqliyyat vasitəsilə gəldiyi zaman 1 gündən 90 günə qədər gəlişinin məqsədi bəyan edilməklə müvəqqəti idxal rejimində heç bir rüsum və vergi ödəmədən daxil ola bilir. Bundan sonra 1 ilə qədər müddətin uzadılması o zaman baş verə bilər ki, Azərbaycanda işlədiyini sənədlər vasitəsilə təsdiq etsin. Bu da Gömrük Məcəlləsinin 258-ci maddəsinə uyğun olaraq təlimat üsulları ilə tənzimlənir.

Ölkəyə gətirilən minik avtomobillərilə bağlı gömrük rüsumlarının aşağı salınması isə bizim səlahiyyətimizdə deyil. Gömrük Komitəsi icraedici orqandır. Əgər rüsumların aşağı salınması ilə bağlı qərar olarsa, biz buna etiraz etmərik".

**S.Mehdiyevin sözlərinə görə, Azərbaycanda qaçaqmalçılıq hallarının qarşısı alınır: "Əgər əvvəllər sərhəd-keçid məntəqələrinin nəqliyyat vasitəsi tutumu gündəlik 200 ədəd idisə, bu gün bu rəqəm 450-600 ədəddir. Məntəqələrdə quraşdırılan yeni avadanlıqlar, xüsusilə də "body scan" aparatları hesabına qaçaqmalçılıq hallarının qarşısı alınır. Bu avadanlıqların tətbiqi ilə, həmçinin, son 2 ildə 2 tona yaxın narkotik vasitə dövriyyədən çıxarılıb".**

***Günel CƏLİLOVA***

**Bu gün istər orta məktəblərdə, istərsə də ali məktəblərdə xarici dilin tədrisinin vəziyyəti ürəkaçan deyil. Müəllimlər arasında keçirilən diaqnostik qiymətləndirmələr, şagirdlərin xarici dil üzrə test nəticəsi bunu deməyə əsas verir. Hətta ötənilki buraxılış imtahanında kafi qiymət ən çox xarici dil fənnindən alınıb.**

# Sərbəst danışıq ünsiyyəti qura bilməyən xarici dil müəllimləri problemi...

***Kamran Əsədov:*** *"Bu gün məktəblərdə xarici dili tədris edən müəllim dərsi həmin dildə deyil, Azərbaycan dilində izah edir"*



Ekspertlər isə bunun səbəbini pedaqoqların ingilis dili bacarıqlarının aşağı səviyyədə olması ilə əlaqələndirirlər. Bəzi ekspertlər bildirirlər ki, müəllimlərin 90 faizi ingilis dilində sərbəst danışa bilmir. Onlar yalnız xarici dilin nəzəri əsaslarını mənimsəyiblər.

Təhsil eksperti Kamran Əsədov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, əmək bazarı təkcə tədris dili dövlət dilində olanlara deyil, eyni zamanda, müasir, rəqabətə davamlı iqtisadiyyatın formalaşması, xidmət sektorunun inkişafı üçün xarici dil biliyi olan kadrlara ehtiyac duyur: "Bu amilləri nəzər aldığı üçün Təhsil Nazirliyi xarici dillərdə tədris olunan ixtisasların sayını artırıb. Bu olduqca müsbət addımdır. Ona görə ki, burada hazırlanan kadrlar yeni yanaşma tərzini formalaşdıracaq. Xarici dildə təhsil vermək üçün mütəxəssislər yetişdirilməlidir. Etiraf edək ki, bir çox universitetdə xarici dillərdə tədris etmək üçün müəllimlərin kifayət qədər problemi var".

Onun sözlərinə görə, Azərbaycan müstəqillik əldə etdikdən sonra təhsildə ciddi kütləviləşmə baş verdi. Xüsusilə də orta ümumtəhsil məktəblərində xarici dillə bağlı ixtisaslara kadr çatışmazlığı yaşandı: "Bunu aradan qaldırmaq üçün kolleclərdə pedaqoji ixtisaslar üzrə plan yerləri açıldı. Qısa müddətdə kolleclərə ingilis dili müəllimlərinin qəbulu həyata keçirildi. Təəssüflər olsun ki, kolleclərin maddi-texniki bazasının və kadr potensialının zəif olması yekunda bilik və bacarıqları zəif olan şəxslərin həmin təhsil müəssisələrində dərs deməsinə səbəb oldu. Kolleclərdə təhsil alan abituriyentlərin buraxılış və qəbul imtahanlarının nəticəsinə nəzər yetirəndə ingilis dili üzrə cavablandırmanın cəmi 26 faiz olduğu aşkar olunur. Bu isə o deməkdir ki, abituriyenlər yalnız az sayda suala cavab veriblər. Belə gerçəklik orta ümumtəhsil müəssisələrində ingilis dili fənninin tədrisinin ürəkaçan səviyyədə olmadığını bir daha göstərir. Bu problemi aradan qaldırmaq üçün ali təhsili olmayan şəxslərin dərs saatı alınaraq əvəzində ali təhsilli şəxslərə verilməlidir. Ali təhsilli şəxslər tədrisə cəlb olunarsa, rəqabət mühitinin artmasına səbəb olar. Eyni zamanda, diaqnostik imkanları zəif olan müəllimlərin orta ümumtəhsil müəssisələrində fəaliyyətinə xitam verilməlidir. Bu, ölkədə təhsilin inkişafı üçün zəruru amildir".

*"Orta və ali məktəblərdə ingilis dilini tədris edən müəllimlərin böyük əksəriyyətinin bilik və bacarıqları aşağı səviyyədədir"*

Həmsöhbətimiz onu da vurğuladı ki, orta və ali məktəblərdə ingilis dilini tədris edən müəllimlərin böyük əksəriyyətinin bilik və bacarıqları aşağı səviyyədədir: "Belə ki, DİM-in hər il keçirilən qəbul imtahanlarının statistik təhlillərinin əks olunduğu "Abituriyent" jurnalında bununla bağlı konkret faktlar və rəqəmlər geniş təhlil olunaraq verilib. Məlum olur ki, I və II qrup üzrə qəbul imtahanlarında iştirak edən abituriyentlərin ən zəif cavab verdiyi, aşağı nəticə göstərdiyi fənn ingilis dilidir. Bu fənn üzrə imtahan iştirakçılarının nəticələri bütün fənlərdən və ölkə üzrə orta göstəricidən dəfələrlə aşağıdır. Belə bərbad vəziyyətin əsas səbəbi orta və ali məktəblərdə ingilis dilini tədris edən müəllimlərin böyük əksəriyyətinin bilik və bacarıqlarının aşağı səviyyədə olmasıdır.

Etiraf edək ki, bu gün məktəblərdə xarici dili tədris edən müəllim dərsi həmin dildə deyil, Azərbaycan dilində izah edir. Ümumiyyətlə, ingilis dili dərsində müəllim həmin dildə danışmır. Müəllim hansı dilsə dərsi izah edirsə, şagird də eyni dildə ona cavab verir".

***Günel CƏLİLOVA***

# "Aquavita" şirkətində maaş problemi - işçilər niyə narazıdır...



*"Əməkhaqqını vaxtında ala bilməyən işçilər kollektiv şəkildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə şikayət etməlidirlər"*

**"TAC" MMC ("Aquavita") şirkətində narazılıq yaranıb. Bu barədə məlumat sosial şəbəkələrdə yayılıb. Məlumatda qeyd olunur ki, şirkət bir neçə aydır işçilərin maaşını vermir.**

**Sahib Məmmədov:** *"TAC" MMC ("Aquavita") şirkətində çalışan işçilərin əmək müqaviləsinin olması sual doğurur"*

İşçilərin dediyinə görə, noyabr ayı başa çatmaq üzrə olsa da, şirkətin işçiləri avqust ayının maaşını bu günlərdə alıblar: "Əməkhaqqının gec verilməsi və ya verilməməsi ilə bağlı narazılıq edən işçilər isə şirkətdən çıxarılır. Şirkətin işçiləri arasında elələri var ki, onlar hər ay kredit ödəyir, kirayədə yaşayırlar. Lakin şirkət rəhbəri işçilərin sosial durumunu fikirləşmir. Heç bir şikayətə baxılmır. Hətta dövlət qurumlarına edilən şikayətlərin də nəticəsi olmayıb. Məsələni ictimailəşdirmək istəyənlər isə işdən qovulacaqları ilə hədələnirlər. Bu baxımdan işçilər problemlərini anonim şəkildə sosial şəbəkələrdəki iri səhifələr vasitəsilə ictimailəşdirmək məcburiyyətində qalıblar".

Əmək Hüquqlarını Müdafiə Liqasının sədri Sahib Məmmədov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, əməkhaqqını vaxtında ala bilməyən işçilər kollektiv şəkildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə şikayət etməlidirlər. İşçilər ya yazılı, ya da kollektiv şəkildə adıçəkilən quruma şikayət edə bilərlər: "Həmin şirkətdə çalışan işçilərin əmək müqaviləsinin olub-olmaması sual doğurur. Əgər işçilərin əmək müqaviləsi varsa, işçilər məhkəməyə müraciət edə bilərlər. Əmək müqaviləsi olmasa belə, işçilər kollektiv şəkildə Dövlət Əmək Müfəttişliyi Xidmətinə müraciət edə bilərlər".

Məsələ ilə bağlı "TAC" MMC ("Aquavita") şirkəti ilə əlaqə saxlamağa çalışdıq. Şirkətdən bizə qısa zamanda cavab veriləcəyini desələr də, sonda sorğumuza cavab verən olmadı. Şirkətlə əlaqə saxladığımız zaman bizə rəhbərliyin ya işdə olmadığını, ya da aidiyyəti şəxslərin məşğul olduqlarını dedilər".

*Günel CƏLİLOVA*

# Azərbaycanda intiharların qarşısının alınmasına yönəlik birgə BMT - Əmək... Nazirliyi layihəsi...

**Dünyanın aktual problemlərindən biri də intihardır. Dünya təcrübəsi göstərir ki, əksər hallarda intiharlar bədbəxt hadisə kimi qeydə alındığına, bəzən isə ölümün intihar, yoxsa qətl hadisəsi olub-olmadığı müəyyənləşdirilmədiyinə görə əsl intiharların sayı barədə dəqiq məlumat əldə etmək kifayət qədər çətindir.**



**Könül Vaqifqızı:** *"İntihar hallarının qarşısını almaq üçün ailə, məktəb, cəmiyyət və dövlət səviyyəsində birgə tədbirlər həyata keçirilməlidir"*

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, intihar edərək dünyasını dəyişənlərin sayı təkcə il ərzində 1 milyon nəfər təşkil edir.

Qeyd edək ki, ölkəmizdə də bu problem mövcuddur və son illər bu halla insanlar demək olar ki, tez-tez rastlaşırlar. İntiharların qarşısını almaq üçün Milli Fəaliyyət Planı hazırlanacaq. Bu barədə Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov "İntiharların qarşısının alınması" mövzusunda keçirilən "dəyirmi masa"da deyib. O qeyd edib ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və BMT İnkişaf Proqramı (BMTİP) tərəfindən birgə iş müstəvisində ölkəmizdə intiharların qarşısının alınması ilə bağlı ilk dəfə olaraq Milli Fəaliyyət Planı layihəsi hazırlanacaq. Onun sözlərinə görə, Ümumdünya Səhiyyə Təşkilatının hesablamalarına görə, orta hesabla son 45 ildə intiharların sayı 60 faiz artıb. İntihar edənlərin üçdə biri cavanlardır.

A.Kərimov intiharların səbəbləri kimi, bu problemin həlli yollarının da müxtəlif olduğunu, əsas tədbirlər sırasında intihar üçün vasitə və alətlərin əldə olunmasının məhdudlaşdırıldığını deyib. O, intihar hallarının azalması üçün maarifləndirmə işlərinin, intihara cəhd edənlər üçün psixoloji dəstəyin, həmçinin, psixi pozuntularla bağlı güclü sarsıntı yaşayanların psixiatr və psixoloqlara vaxtında müraciət etmələrinin vacibliyini diqqətə çatdırıb.

Ekspertlərin fikrincə, İntiharların Qarşısının Alınması ilə bağlı Milli Fəaliyyət Planının hazırlanması bu sahədə yaşanmış problemin həll olunmasına səbəb olacaq.

Psixoloq Könül Vaqifqızı "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, intihar halları yalnız Azərbaycanın deyil, bütün dünyanın narahat olduğu çox ciddi problemdir. Hətta Dünya Psixiatriya Assosiasiyası XXI əsri depressiya və intiharlar əsri adlandırıb: "İntiharların qarşısını almaq üçün müxtəlif tədbirlər həyata keçirilir. Bununla bağlı maarifləndirmə işləri aparılır, psixoloqlar kömək etməyə çalışır, "qaynar xətt" yaradılır və s. Ancaq bu cür tədbirlər köklü şəkildə məsələni həll etmir, demək olar ki, hər gün intihar xəbərini eşidirik. Necə olur ki, bir insan öz canına qəsd edə bilir? Dünyada elə bir problem varmı ki, onu aşa bilməyəsən? İntiharların qarşısını necə almaq olar? Bu sualın cavabı tam şəkildə tapılmadan intiharların qarşısının alınması mümkünsüzdür".

*"İntihar xəbərləri mediada geniş şəkildə yayılmamalıdır"*

Həmsöhbətimiz hesab edir ki, intiharın qarşısını almaq üçün bütün cəmiyyət bu haqda məlumatlı olmalıdır. Belə ki insan resursları ilə işləyən peşə qrupları - müəllimlər, sahə həkimləri, sosial işçilər və başqaları sayıqlıq göstərməli, bu hallarla rastlaşdıqda düzgün istiqamətləndirmə aparmalı və psixi sağlamlıq sahəsində çalışan mütəxəssislərlə sıx əməkdaşlıq etməlidirlər: "İntihar xəbərləri mediada geniş şəkildə yayılmamalıdır. Təəssüf ki, bəzi xəbər portalları intihar hadisəsini qabarıq şəkildə işıqlandırır, intihar edəni az qala qəhrəman kimi təqdim edirlər. Bu yolverilməzdir. İlk növbədə media bu məsələyə həssas olmalıdır. Milli Fəaliyyət Planı hazırlanarsa, medianın mövqeyi də nəzərə alınmalıdır. Mediada bu tip xəbərlər qabarıq şəkildə təqdim olunmamalı, eyni zamanda, saytlarda bu mövzuda xəbər və ya material hazırlanarsa, daha həssas yanaşılmalıdır".

Psixoloqun fikrincə, intihar hallarının qarşısını almaq üçün ailə, məktəb, cəmiyyət və dövlət səviyyəsində birgə tədbirlər həyata keçirilməlidir.

K.Vaqifqızının sözlərinə görə, intiharların başvermə səbəbləri müxtəlifdir: "İnsan çıxış yolu tapmadıqda, depressiyaya düşdükdə bu hadisə baş verir. Lakin təəssüf ki, son vaxtlar cəmiyyətdə intiharlar dəb halını ala bilir. Bu böyük bir problemdir. Nəzərə almaq lazımdır ki, insan psixoloji varlıqdır. İnsan cəmiyyəti öz şüuru çərçivəsində dərk edir.

İnsan düşdüyü mühitdə qərar qəbul edəcək məxluqdur. İntiharların təməlində fərdi, psixoloji xüsusiyyətlər dayanır. Yəni cəmiyyətdə baş verən intiharların özəyində insanın şüuru, cəmiyyətdəki statusu dayanır. Bunun üçün də intiharların qarşısını almaq üçün insanların şüurunda müəyyən dəyişikliklər edilməlidir".

*Günel CƏLİLOVA*

# Uçub dağılan yollara görə hələ heç vaxt cinayət işi açılmayıb - faktları malalamaq kimə lazımdır...

**Yol insanı işığa, aydınlığa, tərəqqiyə aparır, amma çox təəssüflər olsun ki, yol təsərrüfatına rəhbərlik edən bir çox insan ya bunu dərk etmək istəmir, ya da öz vəzifələrinə səhlənkar yanaşır. Azərbaycan Prezidenti tərəfindən nəinki paytaxt yollarının, eləcə də rayonların, ən ucqar kəndlərin yollarının qurulması, təmiri ilə bağlı külli məbləğdə vəsait ayrılır, lakin bəzi istisnaları nəzərə almasaq, yolların qurulması, inşası, təmiri elə də keyfiyyətli olmur.**

*"...bu, başqalarına da dərs olar"*

Bir çox hallarda yolların salınmasına xərclənməsi üçün dövlət tərəfindən ayrılan vəsaitin cüzi bir hissəsi yol təsərrüfatının qurulmasına xərclənir, qalan vəsait isə ciblərə gedir. Məlum olduğu kimi, tez-tez yollarda təmir işləri aparılır, dağılan asfalt örtüyü yenilənir, amma yenilənən örtüklərin də ömrü çox çəkmir, tezliklə məhv olurlar.

Yol təsərrüfatına rəhbərlik edənlər yollarda əsaslı təmir-bərpa işləri getdiyini, yeni keyfiyyətli yolların salındığını desələr də, yolların keyfiyyəti məsələsində ciddi problemlər olduğu aşkar şəkildə özünü göstərir. Tez-tez yollar çökür, dağılır. Asfalt örtüyü keyfiyyətli olsaydı, əlbəttə ki, yolların dağılmasından, çökməsindən danışmazdıq.

Bibiheybət yolunun çökməsi, dağılması, bunun nəticəsində də tikililərə, avtomobillərə zərər dəyməsi faktı hər kəsi ciddi narahat edir. Avtomobil Yolları Dövlət Agentliyindən verilən məlumata görə, Bibiheybət yolunun çökməsi ərazidə baş verən sürüşmə hadisəsi ilə bağlıdır. Bu öz yerində. İndiyə qədər yalnız Bibiheybət yolu çökməyib, saysız yolda bu kimi hallar baş verib.

Bu günədək dağılan, parçalanan, uçan yollarla bağlı heç bir cinayət işi açılmayıb və buna görə hansısa məmur, məsul şəxs cinayət məsuliyyətinə cəlb edilməyib.

Tanınmış hüquqşünas Adəm Məmmədov "Bakı-Xəbər"ə bildirdi ki, yeni salınan yolların uçub-dağılması, çökməsi son dövrlər adi hala çevrilib. A.Məmmədovun sözlərinə görə, yolların dağılmasında ciddi cinayət tərkibi var. Hüquqşünas hesab edir ki, bu gün yol təsərrüfatına ayrılan külli miqdarda vəsaitin mənimsənilməsi səbəbindən bu kimi hallar baş verir. "Əlbəttə, bu məsələlərdə cinayət tərkibi var. Hesab edirəm ki, yollar çökərkən, dağılarkən "bu hadisə təbii fəlakətin təsirilə baş verib" deyib onu ört-basdır etmək olmaz. Bununla bağlı cinayət işi açılmalıdır. Əvvələ ekspertiza keçirilməlidir, yola çəkilən xərc, yolun keyfiyyəti müəyyən edilməlidir ki, yola nə qədər asfalt vurulub, bu işə nə qədər vəsait xərclənib və s. Bundan sonra hadisə ilə bağlı cinayət işi açılmalı və bu işə məsul olan vəzifəli şəxslər məsuliyyətə cəlb olunmalıdırlar. Yolsalma işi ilə məşğul olanlar o qədər fantastik qiymətlərdən danışırlar ki, bunun öhdəsindən gəlmək çətin məsələdir. Yollar həddən artıq keyfiyyətsiz salınır və bunun nəticəsində də dağılır, çökür. Dövlət tərəfindən güclü maliyyə ayrılmasına, xərclənməsinə baxmayaraq, çox təəssüflər olsun ki, yol təsərrüfatımız bərbad gündədir və bu sahədə olduqca çoxlu problem mövcuddur. Pullar ayrılır, amma onun çox az hissəsi yola xərclənir, bu sahədə ciddi korrupsiya, maliyyə yeyintisi halları mövcuddur. Odur ki, bu sahəyə çox ciddi nəzarət edilməlidir".

***Adəm Məmmədov:** "Yolların keyfiyyətinə cavabdeh olan, məsuliyyət daşıyan bir çox vəzifəli şəxs həbs edilməli, onlarla bağlı cinayət işi başlamalıdır"*




A.Məmmədov qeyd etdi ki, bu gün kanalizasiya idarəsi də, yol idarəsi ilə birləşib xoşagəlməz hallar törədirlər. "Mən başa düşə bilmirəm, kanalizasiya idarəsi ayrı idarədir, yoxsa yol idarəsi ilə bir yerdədir? Bilirsiniz, asfaltı çəkirlər, bir-iki saatdan sonra kanalizasiya, su idarəsinin işçiləri orada peyda olub yolu qazırlar.

**Yolların çökməsi, dağılması o yolların keyfiyyətsiz salınması ilə bağlıdır. Hesab edirəm ki, yolların keyfiyyətinə cavabdeh olan, məsuliyyət daşıyan bir çox vəzifəli şəxs həbs edilməli, onlarla bağlı cinayət işi başlamalıdır. Çünki bu sahəyə məsul olan, lakin öz vəzifəsinə səhlənkar yanaşan, korrupsiyaya bulaşan vəzifəli şəxslər barədə cinayət işi açılsa, bu, başqalarına da dərs olar. Bunun qarşısını başqa yolla almaq mümkün deyil" - deyə A.Məmmədov qeyd etdi.**

***İradə SARIYEVA***



# Şirkət rəhbərinin qanunsuz əməlləri ifşa edildi

**Baş prokuror yanında Korrupsiyayaqarşı Mübarizə Baş İdarəsi tərəfindən həyata keçirilmiş təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri ilə "İ-Qafqaz" MMC-nin təsisçisi və direktoru İsmayıl Maqsudovun qulluq səlahiyyətlərindən sui-istifadə etməklə, vergi bəyannamələrinə əsasən firmasının gəliri olmadığı halda maliyyə vəziyyətinə dair bilə-bilə şişirdilmiş yalan məlumatlar təqdim edib, Bakı şəhərində avtobuslarla sərnişindaşıma fəaliyyətini həyata keçirmək təyinatı üzrə kredit verilməsi üçün "Bank of Azerbaijan" ASC-yə müraciət edərək müxtəlif vaxtlarda 853 min manat məbləğində kredit alıb "Bank of Azerbaijan" ASC-yə külli miqdarda ziyan vurmasına, həmin kreditlər üzrə 1 milyon 244 min manat məbləğində pul vəsaitini qəsdən ödəməməklə "Bank of Azerbaijan" ASC-nin bank fəaliyyətinin və kredit siyasətinin stabilliyinə mənfi təsir göstərməklə bankın normal fəaliyyətinin pozulmasında ifadə olunan hüquqlarına və qanuni mənafelərinə ağır nəticələrə səbəb olan mühüm zərər vurmasına əsaslı şübhələr müəyyən edilib.**

Cinayət işi üzrə İsmayıl Maqsudova Cinayət Məcəlləsinin 195.2 (qanunsuz kredit alma külli miqdarda ziyan vurduqda) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) maddələri ilə ittiham elan edilib və"İ-Qafqaz" firmasının mülkiyyətində olan, ümumi dəyəri 480 min manat məbləğində qiymətləndirilmiş 12 ədəd "Daewoo" markalı daşınar əmlakı üzərinə həbs qoyulub.

Hazırda cinayət işi üzrə qeyd olunan qanunsuz halların tam, hərtərəfli yoxlanılmaqla təqsirli şəxslərin dairəsinin tam müəyyənləşdirilərək məsuliyyətə cəlb edilmələri istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Bakıda Xətainin heykəlinin başqa yerə köçürülməsinə ciddi ehtiyac var

**Azərbaycanın dövlətçilik tarixində müstəsna yeri olan Səfəvilər dövlətinin banisi və klassik Azərbaycan şairi Şah İsmayıl Xətainin ana dilimizin tarixi inkişafında, xalq dilindən saray dilinə, rəsmi dövlət atributuna çevrilməsində əvəzsiz rol oynadığı məlumdur.**



***Ziyadxan Əliyev:** "Xətainin heykəlinin memarlıq həlli düzgün verilməyib"*

***Vaqif Abışov:** "Bu abidəni ziyarət etmək həm paytaxt sakinləri, həm də turistlər üçün əlçatmazdır"*

Azərbaycan türkcəsi tarixdə ilk dəfə dövlət dili kimi Şah İsmayıl zamanında istifadə olunub.

Şah İsmayıl Xətainin xatirəsinin əbədiləşdirilməsi üçün müstəqil Azərbaycan dövləti tərəfindən müxtəlif addımlar atılıb, paytaxt Bakıda, Gəncədə, eləcə də digər şəhərlərdə Xətai prospektləri salınıb, dahi şair və hökmdarın abidəsi ucaldılıb.

Məlum olduğu kimi, 1993-cü ildə Bakıda Xətainin heykəli ucaldılıb. Heykəlin müəllifi İbrahim Zeynalovdur. Heykəl yüksək bədii-estetik dəyəri, plastik forma rəngarəngliyi və milli koloriti ilə seçilir. 2007-ci ildə Şah İsmayıl Xətai heykəlinin postamenti yenidən qurulub, abidə isə bərpa edilib.

Uzun illərdir Şah İsmayıl Xətainin abidəsinin qoyulduğu məkan müzakirə mövzusuna çevrilib və heykəlin həmin ərazidən başqa bir əraziyə köçürülməsi aktuallaşıb. Qeyd edək ki, Xətainin heykəli Yusif Səfərov küçəsində, düz magistral yolun ortasında qoyulub. Küçədə hərəkətin intensiv olması ilə əlaqədar onun genişləndirilməsindən sonra abidə magistral yolun ortasında qalıb. Abidəni ziyarət etmək paytaxt sakinləri üçün əlçatmaz olub. Bununla bağlı narazılıqlar yaranıb. Tarixi şəxsiyyətin abidəsinin yerinin dəyişdirilməsi, onun ziyarətçilər üçün daha rahat, əzəmətli və görünən yerdə qoyulması ilə bağlı müxtəlif mətbuat səhifələri, sosial şəbəkələrdə müzakirələr aparılır. Ona görə də özümüz məsələni araşdıraraq müəyyən etdik ki, hazırda bir sıra qurumlar tərəfindən Xətainin abidəsinin yerinin dəyişdirilməsi ilə bağlı hazırlıqlar aparılır və tanınmış ingiltərəli memar Mənsur Bookani tərəfindən yeni layihə işlənir.

Mətbuatın yazdığına görə, heykəl indiki yerindən bir qədər aralıda, həmin küçədə yerləşən parkın ərazisinə köçürüləcək. Burada əzəmətli abidə kompleksi yaradılması nəzərdə tutulub. Xətainin şah çadırında taxtda oturmuş şəkildə olacaq abidəsi əsas magistral yola - Yusif Səfərov küçəsinə baxacaq, ziyarətçilər üçün çox əlverişli olacaq və bütün istiqamətlərdən görünəcək. Həm də abidə şəhərin giriş-çıxışında yerləşən magistral yolun yanında olduğundan, paytaxta gələn və gedən qonaqlar, çoxsaylı turist də bu abidəni seyr edə biləcək.

Tanınmış sənətşünas, Əməkdar incəsənət xadimi Ziyadxan Əliyev "Bakı-Xəbər"ə bildirdi ki, bu gün yalnız Xətainin deyil, həmçinin, Üzeyir Hacıbəyovun, Xurşudbanu Natəvanın, Mirzə Ələkbər Sabirin də heykəlinin yerinin dəyişdirilməsinə ehtiyac var. Z.Əliyev qeyd etdi ki, Bakıda bir sıra heykəllərin memarlıq həlli düzgün verilmədiyi üçün, onların yeri dəyişdirilməlidir. "Xətainin heykəlinin magistralın tam ortasında olması heykəli ziyarət etmək istəyənlər üçün problemlər yaradır. Hesab edirəm ki, Xətainin heykəlinin yerinin dəyişdirilməsi zəruridir. Bir faktı da deyim ki, hər kəs heykəlin müəllifinin yalnız İbrahim Zeynalov olduğunu deyir, hər yerdə belə də yazılır. Amma İ.Zeynalov o heykəli tək düzəltməyib. Xətainin heykəlinin müəllifləri İ.Zeynalov və Zakir Mehdiyevdir. Heykəltəraş Z.Mehdiyevin əsərləri bir sıra beynəlxalq sərgilərdə iştirak edib. Heykəlin həmmüəllifi kimi Z.Mehdiyevin adının qeyd edilməsi ədalətin bərpa edilməsi olardı.

Bakıda yalnız Xətainin deyil, digər şəxsiyyətlərin də heykəllərinin yerinin, yönünün dəyişdirilməsi vacibdir. Çünki o heykəllərin çoxunun zamanında memarlıq həlli düzgün verilməyib. Bilirsiniz, Bakıda qoyulan heykəllərin bir çoxunun arxası günəşə tərəfdir, bu da gün uzunu heykəllərin üzünə kölgə düşməsinə səbəb olur. Xətainin heykəlinin də memarlıq həlli düzgün verilməyib, bilmirəm o vaxt bunu qəsdən ediblər, yaxud bilməyərəkdən, bu belə alınıb, amma heykəlin yeri dəyişdirilməlidir" - deyə Z.Əliyev bildirdi.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix elmləri doktoru Vaqif Abışovun fikrincə, heykəlin yerinin dəyişdirilməsinə ehtiyac böyükdür. "Xətainin abidəsinin yerinin dəyişdirilməsi ilə bağlı uzun illərdir ziyalılar tərəfindən təkliflər, fikirlər səsləndirilir. Bu gün də bu məsələ geniş şəkildə müzakirə edilir. Xətainin heykəlinin hansı səbəbdən magistral yolun ortasında qoyulması həmişə müxtəlif suallar doğurub. Bu abidəni ziyarət etmək həm paytaxt sakinləri, həm də turistlər üçün əlçatmazdır, insanlar abidəyə yalnız uzaqdan baxmaqla kifayətlənirlər, ona görə də onun yeri dəyişdirilməlidir. Çünki abidənin qoyulduğu Yusif Səfərov küçəsi maşınların intensiv hərəkət etdiyi küçədir və insanlar maşınların qorxusundan abidəni ziyarət edə bilmirlər.

**Bu baxımdan hesab edirəm ki, Xətainin heykəlinin başqa bir yerə köçürülməsi, ərazidəki parka qoyulması çox yaxşı olardı. Bu barədə qərarı çox müsbət qiymətləndirmək olar. Xətainin abidəsi uyğun bir yerə köçürülərsə, o abidəni ziyarət edən sakinlərin, şagird və tələbələrin, turistlərin sayı daha çox olar" - deyə bildirən V.Abışov hesab edir ki, Xətainin abidəsinin köçürülməsi gecikmiş məsələ olsa da, bu gün bu barədə təşəbbüslərin qaldırılması yaxşı haldır.**

***İradə SARIYEVA***

№ 210 (4108) ■ Qiyməti: 40 qəpik

BAKI XƏBƏR

27 NOYABR 2019-cu il

www.baki-xeber.com

# Görüntülü danışdığınız adama toxuna biləcəksiniz...

**Virtual məkanda qarşınızdakı şəxs sizdən nə qədər uzaqda olursa-olsun, artıq o adama toxuna biləcəksiniz.**

"Publika.az" xəbər verir ki, ABŞ-ın Nortvestern Universitetinin biomühəndisi Con Rocers və komandası yeni, kabelsiz və batareyasız toxunma hissini virtual mühitə köçürən "ağıllı dəri" təqdim ediblər. Elm alemi illərdir virtual dünyaya hisslərimizi əlavə etmək üçün işlərini davam etdirir. Çox sayda "elektronik dəri" cihazı istehsal edilsə də, bu texnologiyalar həmişə kabelli elektrodlara bağlı olur-




du. Sözügedən aparatlar sürətli reaksiya vermirdi və o qədər də effektli deyildi. Ancaq Con Rocersin cihazı daha sürətli və real hisslər yaşadır.

**Virtual toxunuş yumşaq və elastik bir təchizata qoşulmuş, sürətli proqramlaşdırıla bilən miniatür titrəməli disk sayəsində reallaşır. Bu sistem sayəsində "ağıllı dəri", bədənə sensorlar vasitəsilə məlumat girişini təmin edir. Beləcə, özümüzü qarşı tərəfə toxunmuş kimi hiss edirik.**

## Dünyada ən böyük çip təqdim edilib

**"Cerebras Systems" şirkəti "Supercomputing 2019" konfransı çərçivəsində dünyada hesablama imkanları baxımından ən böyük və güclü "Cerebras Wafer Scale Engine" çipini təqdim edib.**

Bu çip artıq süni intellekt funksiyalarına malik "CS-1" superkompüterində tətbiq edilib. "İctnews.az" bildirir ki, çip 12 düymlük silisium lövhənin, demək olar, bütün sahəsini tutur.

Bu, "Nvidia"nın ən böyük qrafik prosessorundan 57 dəfə böyükdür. Bu halda o, 78 dəfə daha çox nüvəyə, 3000 dəfə daha çox daxili yaddaşa və 33 min dəfə daha yüksək məlumat ötürmə qabiliyyətinə malikdir.

Sözügedən çip ilə işləyən "CS-1" superkompüteri 15 KVT, kifayət qədər mürəkkəb soyutma sistemi 4KVT elektrik enerjisi sərf edir və qida blokunun natamamlığı səbəbindən 1 KVT elektrik enerjisi itkiyə məruz qalır.

## Elan

Şəki rayonu, Suçma kənd sakini Mütəllibov Sərdar Yəhya oğlunun və ailə üzvlərinin adına verilmiş JN: 247 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

"QAX AVTONƏQLİYYAT" ASC-nin səhmdarlarının ümumi yığıncağı 25.12.2019-cu il tarixində keçiriləcək. Gündəlikdə duran məsələlər: 1) ASC-nin gələcək fəaliyyəti. 2) ASC-nin kreditor öhdəlikləri. 3) ASC-nin illik yekun məsələləri.
Ünvan: Qax şəhəri, M.Mustafayev 34.

Qocayeva Çinarə Natiq qızına Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Hüseynov İmran Hüseyn oğlunun adına, Bakı şəhəri, 54 nömrəli texniki-peşə məktəbi tərəfindən 1978-1979-cu il tarixində verilmiş elektrik qaynaqçısı diplomu itdiyi üçün etibarsız sayılır.

Quliyeva Elyanur Hətəm qızının adına, Bakı şəhəri, Nəsimi rayonu, Dilarə Əliyeva küçəsi, ev 147 ünvanına verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

## "Nar"ın son yenilikləri "BakuTel-2019" sərgisində!

**"Nar" ən son yeniliklərin və texnoloji nailiyyətlərin nümayiş olunduğu 25-ci "BakuTel-2019" Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları Sərgisində iştirak edəcək. Dekabrın 3-6-da keçiriləcək sərgidə yenilənmiş "Nar" stendinə yaxınlaşan ziyarətçilər həm mobil operatorun məhsulları ilə tanış ola biləcək, həm müxtəlif hədiyyələr qazanacaq, həm də əyləncəli müsabiqələrdə iştirak edə biləcəklər.**

Qeyd edək ki, dörd gün davam edəcək sərgidə "Nar" hesabı daha asan idarə etmək, nömrəni hər zaman nəzarət altında saxlamaq, bütün xidmət və məhsullardan xəbərdar olmaq imkanı verən "Nar+" tətbiqini, "WhatsApp"da pulsuz yazışma, sərfəli zəng və internet təklifi ilə səyahətsevərlərin istirahətini daha zövqedici edən "Rominq" paketlərini, həm internetdən, həm də sosial şəbəkələrdən çox istifadə edənlər üçün ikiqat internetdən yararlanmaq imkanı verən "CavanNar" tarifini abunəçilərinə təqdim edəcək. Ziyarətçilər, eyni zamanda, virtual reallıq oyunu vasitəsilə "Nar" şəbəkəsini test və 4G sürətini hiss edə biləcəklər.

Bundan başqa, mobil operatorun stendində əyləncəli yarışlar, müsabiqələr, maraqlı oyunlar da keçiriləcək. Sərginin keçiriləcəyi 4 gün ərzində "Nar" stendinə yaxınlaşan insanlar müxtəlif hədiyyələr əldə etməklə yanaşı, müsabiqədə iştirak edib müasir smartfon qazana biləcəklər.

Mobil operator hər kəsi 3-6 dekabr tarixlərində Bakı Ekspo Mərkəzində keçiriləcək 25-ci "BakuTel-2019" Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları Sərgisindəki "Nar" stendinə dəvət edir.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib."Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97,6%-ni əhatə edir və 8600-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir.




**Qoç** - Həm uğurlu, həm də maraqlı gündür. Üstəlik, o, romantik tonlarla bəzənə bilər. Bəzən işləriniz gətirəcək, bəzən isə fenomenal şəkildə gətirəcək. Sanki, heç nə etməyə ehtiyac yoxdur: həyat, onsuz da, sizə rifah gətirəcək.


**Buğa** - Peşə sahəsindəki fikir ayrılıqlarına sakit yanaşın. Bu gün onlar yalnız normal iş prosesinin bir hissəsidir. Hətta, rəhbərliklə də hansısa uzağa gedən nəticələr olmadan ürəklə mübahisə etmək olar.


**Əkizlər** - Yeni şeyləri o qədər tez öyrənirsiniz ki, artıq günün ortasında hansısa sahədə professor ola bilərsiniz. Əlbəttə, bu, mübaliğədir, amma bir az. Gün istənilən iş üçün münasibdir. Bu işlərdə yaradıcılıq nə qədər çox olsa, bir o qədər yaxşıdır.


**Xərçəng** - Ulduzlar sizin küçədə bayram vəd edir. Bəxtiniz gətirəcək. Ağlınıza belə gətirmədiyiniz görüşlər, təkliflər və təsadüflər mümkündür. Şansınızı əldən verməyin, qətiyyətli olun və seçdiyiniz yoldan sapmayın.


**Şir** - Diqqət cəmləşdirməyi tələb etməyən müşğuliyyətlər üçün pis gün deyil. Əgər iş masanızın üstündə kağızların yerini dəyişdirmək üçün bir neçə saat ayıra bilsəniz, məhz bununla məşğul olun.


**Qız** - Yalnız xırda xoşagəlməzliklər və gözlənilməz təsadüflər ola bilər. Ən əsası, gün istədiyiniz kimi keçməsə belə, əl-qolunuzu soyutmamaqdır. Bu gün həyasızlıq yox, inadkarlıq nəticə verəcək.


**Tərəzi** - İstənilən iş üçün münasib olan neytral gündür. Sadəcə olaraq, bu işə ağılla girişmək lazımdır. Məqsədə çatmaq üçün hansısa yeni üsulları sınamaq olar: yəqin ki, onlar köhnələrdən maraqlı olacaqlar.


**Əqrəb** - Birmənalı olmayan və dolaşıq vəziyyət yaranacaq. Ondan baş çıxarmaq gözlədiyinizdən də çətin olacaq. Ziddiyyətli məlumat alacaqsınız. Sizə faktları təhlil emək və düzgün nəticə çıxarmaq üçün vaxt lazımdır.


**Oxatan** - Tikinti işlərinə başlamaq, ölkədə və ya xaricdə daşınmaz əmlak almaq üçün münasib gündür. Bütün "hə" və "yox"ları götür-qoy etsəniz, bu gün əldə edilən sövdələşmələr faydalı olacaq.


**Oğlaq** - Gün sürprizlər vəd etmir. Amma hadisələrin inkişafı əlverişli olacaq. Şəraitə tez uyğunlaşa biləcək, düzgün qərarlar qəbul edəcəksiniz. Bundan sonra, yalnız onları mümkün qədər tez həyata keçirmək qalır.


**Dolça** - Çox şey barədə düşünmək lazım gələcək. Problem və çətinliklər leysan kimi üstünüzə yağacaq. Düşünmək, ətrafa boylanmaq üçün vaxtınız olsa, onların hamısının öhdəsindən gələrsiniz.


**Balıqlar** - Bu gün peşə sahəsindəki çətinliklərlə yadda qalacaq. Xüsusilə, rəhbərliklə ciddi fikir ayrılıqları yarana bilər. Siz bundan sonra nə etmək - kompromis, yeni iş yeri axtarmaq barədə düşünməyə başlayacaqsınız.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Rusiyalı fiziklər yüksəksürətli siqnalın uzaq məsafəyə ötürülməsi üzrə rekorda imza atıblar

**Moskva Fizika Texniki İnstitutu , "T8" şirkəti və ABŞ-ın "Corning Incorporated" korporasiyasının fizikləri aralıq gücləndirici olmadan yüksəksürətli siqnalın uzaq məsafəyə ötürülməsi üçün "Volqa" sistemini hazırlayıblar.**

Tədqiqat işinin nəticələri "IEEE Photonics Technology Letters" jurnalında dərc edilib. "İctnews.az" bildirir ki, fiziklər ilk sınaq çərçivəsində siqnalı 520 kilometr məsafəyə 200 Qb/s sürətlə ötürməyə nail olublar, halbuki, əvvəlki rekord 100 Qb/s sürətini ötmürdü. Belə siqnal gücünü əldə etmək üçün ABŞ-ın "Corning" şirkətinin kabellərindən istifadə edilib. Siqnalın zəifləməməsi üçün kabel başlıq və sonluq hissələrdə iki aralıq nöqtədə gücləndirilib. Bu texnologiya Sibir, Kanada adaları və ya İndoneziyanın məskunlaşmamış regionlarında internetə çıxışı təmin etməyə imkan verəcək. Bu texnologiyadan istifadə etmək üçün provayderlər aralıq stansiyalarından istifadə etməli olmayacaqlar.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: Aydın Quliyev

Baş redaktorun müavini: Tahir Tağıyev

Redaksiyanın ünvanı: Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə
Tel-faks: 510-87-40; 510-87-38; 510-87-39
e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846
Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.
Sifariş: №2514 Tiraj: 3050

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.